

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 161 (4660) **3 sentyabr** 2014-cü il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Təhsilin inkişafına dövlət qayğısı gücləndirilir

***Azərbaycan Prezidenti İlham Əliyev***
***Bakının Nəsimi rayonundakı 54 nömrəli məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub***

Səh 2



5

“İstər Əli Əhmədov, istərsə də Mübariz Qurbanlı yenə də mütəmadi partiyadadırlar”



7

““Azadlıq” qəzetçilik simasını itirib”



11

Erməni əsir Sarkisyan rejimini ifşa etdi



# Təhsilin inkişafına dövlət qayğısı gücləndirilir

*Azərbaycan Prezidenti İlham Əliyev Bakının Nəsimi rayonundakı 54 nömrəli məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub*

***Sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Nəsimi rayonundakı 54 nömrəli tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər hər il olduğu kimi, bu il də davamlı olaraq həyata keçirilir. Təhsil, səhiyyə, mədəniyyət müəssisələri əsaslı şəkildə yenidən qurulur, yeni-yeni məktəb binalarının və uşaq bağçalarının inşası uğurla həyata keçirilir.***





Bakı Şəhər İcra Hakimiyyətin başçısı Hacıbala Abutalıbov 54 nömrəli tam orta məktəbdə görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, bu məktəbin binası 1976-cı ildə inşa olunub. Üçmərtəbəli bina iki korpusdan ibarətdir. 56 sinif otağı olan məktəb 1076 şagird yerlikdir. Yeni dərs ili ərəfəsində 54 nömrəli tam orta məktəbin binası əsaslı şəkildə yenidən qurulub. Bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində təmir edilib. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin hərbi hazırlığının və vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə məktəbdə hərbi hazırlıq sinfi də yaradılıb. Müasir istilik və işıqlandırma sistemləri quraşdırılıb. Məktəbin 1 hektar yarım həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb. Dövlətimizin başçısı sinif otaqlarında, fənn kabinetlərində yaradılan şəraitlə yaxından tanış oldu.

## Rəsmi xronika

Sentyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev cari ilin oktyabr-noyabr aylarında Bakıda "Gənclər siyasəti üzrə Birinci Qlobal Forum"un və Kompyuter Oyunları üzrə VI Dünya Çempionatının keçirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən Forumun və Çempionatın keçirilməsini təmin etmək məqsədi ilə 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Gənclər və İdman Nazirliyinə 2 milyon manat ayrılıb.

Azərbaycan Prezidenti İlham Əliyev Nizaməddin Quliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Nizaməddin Məhəmməd oğlu Quliyev "Şöhrət" ordeni ilə təltif edilsin. Qeyd edək ki, N.Quliyev Goranboy rayon İcra Hakimiyyətinin başçısıdır.

# Almaniya Azərbaycanla əlaqələrə böyük önəm verir

*Prezident İlham Əliyev Almaniya nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Alman-Azərbaycan Forumunun idarə heyətinin sədri, Alman Mərkəzi Sənətkarlar Birliyinin keçmiş baş katibi, sabiq dövlət katibi Hans-Eberhard Şlayerin, Bundestaqın deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Karin Ştrentsin, "Almaniya-İsrail Cəmiyyəti"nin sədri Raynold Robbenin, Alman-Azərbaycan Forumunun baş katibi, keçmiş dövlət katibi Mixael Andreas Butsun və "Almaniya İqtisadiyyatının Şərq Komitəsi"nin icraçı direktoru Rayner Lintnerin daxil olduğu Almaniya nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan ilə Almaniya arasında fəal əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq infrastruktur, müxtəlif investisiya layihələrində alman şirkətlərinin iştirakı üçün yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev Almaniyaya səfəri zamanı orada keçirilən biznes forumun əhəmiyyətini qeyd etdi. Alman-Azərbaycan Forumunun fəaliyyətini yüksək qiymətləndirən dövlətimizin başçısı bu forumun Azərbaycan həqiqətləri və ölkəmizdə əldə olunan nailiyyətlər barədə Almaniya ictimaiyyətinin daha çox məlumat əldə etməsi baxımından önəmli olduğunu bildirdi.

Azərbaycan Prezidenti ilə yenidən görüşündən böyük məmnunluq hissi keçirdiyini bildirən Hans-Eberhard Şlayer ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. O, ölkəmizə nüfuzlu siyasətçilərdən və sahibkarlardan ibarət nümayəndə heyəti ilə səfər etdiklərini qeyd etdi.

Görüşdə Almaniya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, sərmayə qoyuluşu, infrastruktur və digər sahələrdə daha da inkişaf etdirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, regionda və dünyada gedən proseslərlə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Həştərxandakı Heydər Əliyev adına Məktəbdə Bilik Günü qeyd edilib

*Heydər Əliyev Fondunun dəstəyi ilə yenidənqurma işlərindən sonra istifadəyə verilən məktəb ilk dəfə olaraq birinci sinfə 110 şagird qəbul edib*

***Həştərxan şəhərindəki Ümummilli Lider Heydər Əliyevin adını daşıyan orta ümumtəhsil məktəbində Bilik Günü ilə əlaqədar təntənəli tədbir keçirilib. Heydər Əliyev Fondunun dəstəyi ilə yenidənqurma işlərindən sonra məktəb bu il ilk dəfə olaraq birinci sinfə 110 şagird qəbul edib. Diasporla İş üzrə Dövlət Komitəsindən "Səs" qəzetinə verilən məlumata istinadən, Bilik Günü tədbirində Həştərxan vilayətinin beynəlxalq əlaqələr naziri Denis Afanasyev, Bakı şəhəri Nərimanov rayon icra hakimiyyəti başçısının müavini Rəşid Ağayev, Ümumrusiya Azərbaycan Konqresinin regional bölməsinin sədri Ədalət Hüseynov, ictimaiyyət nümayəndələri, valideynlər, əmək veteranları və məktəblilər iştirak edib.***

Həştərxan vilayətinin beynəlxalq əlaqələr naziri Denis Afanasyev çıxışında "Heydər Əliyevin adını daşıyan bu məktəb Həştərxan vilayəti ilə Azərbaycan arasında qurulmuş səmərəli əlaqələrin nəticəsidir" - deyib və şagirdlərə yeni təhsil ilində uğurlar arzulayıb.

Təbriklərə qoşulan Bakı şəhəri Nərimanov rayon icra hakimiyyəti başçısının müavini Rəşid Ağayev isə Heydər Əliyev Fondunun nəinki Həştərxan vilayətində, bütün dünyada uğurlu fəaliyyətindən söz açıb. Bildirib ki, Həştərxan vilayətində sosial layihələrdən biri də Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə sentyabrın sonunda istifadəyə veriləcək 140 nəfərlik uşaq bağçasıdır. Sonda Rəşid Ağayev Heydər Əliyev Fondu adından müəllimləri, valideynləri yeni dərs ili münasibətilə təbrik edib, məktəblilərə isə uğurlar arzulayıb.

Ümumrusiya Azərbaycan Konqresinin Həştərxan regional bölməsinin sədri Ədalət Hüseynov da öz növbəsində bütün iştirakçıları təbrik edərək, şagirdlərə gələcəkdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev kimi layiqli şəxsiyyət olmağı arzulayıb. Sonda birinci sinif şagirdlərinə Heydər Əliyev Fondu tərəfindən hədiyyələr təqdim olunub. Təntənəli mərasimdən sonra tədbir iştirakçıları Heydər Əliyevin adını daşıyan parkdakı abidəni ziyarət edərək, abidə önünə gül dəstələri qoyublar.

**NƏZAKƏT**

# Almaniya nümayəndə heyəti Milli Məclisdə olub



***Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov sentyabrın 2-də Alman-Azərbaycan Forumunun idarə heyətinin sədri, Alman Mərkəzi Sənətkarlar Birliyinin keçmiş baş katibi, sabiq dövlət katibi Hans-Eberhard Şlayerin, Bundestaqın deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Karin Ştrentsin, "Almaniya-İsrail Cəmiyyəti"nin sədri, Raynold Robbenin, Alman-Azərbaycan Forumunun baş katibi, sabiq dövlət katibi Mixael Andreas Butsun və "Almaniya İqtisadiyyatının Şərq Komitəsi"nin icraçı direktoru Rayner Lintnerin daxil olduğu Almaniya nümayəndə heyəti ilə görüşüb. AzərTAc xəbər verir ki, görüşdə Milli Məclisin sədri Almaniya-Azərbaycan Forumunun işini yüksək qiymətləndirdiyini deyib. Əminliklə bildirilib ki, görülən işlər ölkələrimiz arasındakı əlaqələrin inkişafına öz töhfəsini verəcək.***

Azərbaycan-Almaniya əlaqələrinə toxunan Oqtay Əsədov deyib ki, ölkələrimiz arasındakı münasibətlər sürətlə inkişaf edir. Vurğulanıb ki, Almaniya Azərbaycanın Avropa İttifaqındakı önəmli tərəfdaşlarından biridir. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 2 milyard 200 milyon dollardan çox olub. Bu ilin altı ayında isə bu rəqəm 1 milyard 300 min dollar təşkil edib. Bildirilib ki, ölkələrimiz arasında ticarət əlaqələrini daha da inkişaf etdirmək üçün kifayət qədər imkanlar var. Oqtay Əsədov ölkələrimizin parlamentləri arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini bildirib. Milli Məclisdə Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyət göstərdiyini xatırladan sədr Almaniya parlamentində də Cənubi Qafqaz üzrə dostluq qrupunun olduğunu diqqətə çatdırıb. Sədr dostluq qrupları arasında əməkdaşlığın önəmli olduğunu deyib. Oqtay Əsədov üç il əvvəl Azərbaycanın Xanlar rayondan bir qrup şagirdin Almaniyanın Ştutqart şəhərinə səfər etdiyini xatırladaraq deyib ki, bu günlərdə Ştutqartdan da Xanlar rayonuna bir qrup şagird gələcək. Bu, yetişməkdə olan nəsillər arasında gələcək əlaqələrin yüksək səviyyədə olacağından xəbər verir. Hans-Eberhard Şlayer Almaniya-Azərbaycan Forumunun ölkələrimiz arasındakı əlaqələrin inkişafına xidmət etdiyini deyib. Qeyd edilib ki, hər iki tərəf Forumun işinin səmərəliyini artırılması üçün öz töhfələrini verir. O, Forumun Azərbaycan parlamenti ilə də əməkdaşlığının sevindirici hal olduğunu bildirib. Azərbaycan-Almaniya münasibətlərinə toxunan qonaq qeyd edib ki, xalqlarımız arasında böyük tarixə malik əlaqələr var.

# Rəcəb Tayyib Ərdoğan: Türkiyə və Azərbaycan strateji tərəfdaşdırlar



Türkiyə və Azərbaycan strateji tərəfdaşdırlar. Trend-in "TRT Haber" telekanalına istinadən verdiyi məlumata görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfəri ərəfəsində hava limanında jurnalistlərə deyib. Onun sözlərinə görə, Azərbaycan və Türkiyəni iqtisadi münasibətlər, ümumilikdə qardaşlıq əlaqələri bağlayır. Dövlət başçısı qeyd edib ki, Azərbaycana səfəri zamanı iqtisadi, siyasi, həmçinin ikitərəfli münasibətlərin inkişafı məsələləri müzakirə olunacaq.

R.T.Ərdoğan bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli, Cənubi Qafqazda sabitlik Türkiyənin xarici siyasətində prioritet məsələlərdən biridir. Onun sözlərinə görə, Türkiyə Cənubi Qafqazda sabitliyi həmişə dəstəkləyəcək: "Ankara Cənubi Qafqazdakı hadisələri diqqətlə izləyir".

# Mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşü başa çatıb



Sentyabrın 2-də Bakıda "Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə" mövzusunda 2014-cü il mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşü başa çatıb. AzərTAc xəbər verir ki, mübadilə görüşünün üçüncü - sonuncu panel iclası "Dini xarakterli mədəni irsin mədəniyyətlərarası dialoqa və Avropa Şurasının dəstəklədiyi universal dəyərlərə töhfəsi" mövzusunda olub. İclasın moderatoru, Avropa Şurasının Şimal-Cənub Mərkəzinin prezidenti Jan-Mari Heydt görüşün təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib. O, 2010-cu ildə Bakıda dünya dini liderlərinin sammitində fəal şəkildə dialoq aparıldığını xatırladıb. Jan-Mari Heydt təəssüflə qeyd edib ki, bu gün dünyada baş verən münaqişələr zamanı dini-mədəni abidələr dağıdılır, məhv edilir. Bütün bu problemlər qarşımızda həll edilməsi vacib olan böyük vəzifələr qoyur və Avropa Şurası son illər məhz mədəniyyətlərarası dialoqla bağlı bir sıra sənədlər tərtib edib. Yunanıstanın Aristotel Universitetinin ilahiyyat üzrə professoru Angeliki Ziaka dini mədəni irsin uzun illərdir ki, tədqiq olunduğunu bildirib. Diqqətə çatdırıb ki, mədəni irsin qorunması və təşviqi məqsədilə Avropa Şurasına üzv dövlətlərin konsepsiyası əsasında təkliflər hazırlanıb. Dini mədəni irsin mədəniyyətlərarası dialoqa töhfəsinin araşdırılması, bununla bağlı tarixən əldə edilmiş təcrübəni özündə əks etdirən sənədlərin hazırlanması, üzv dövlətlərin müvafiq sahədə təcrübə mübadiləsi, gənclərin bu işə qoşulmaları vacib amillərdəndir. Nəinki qədim, yeni dövrə aid mədəni irsin qorunması və təşviqi də üzv dövlətlərə tövsiyə edilib. Müasir dünyamızda dini, etnik münaqişələrin hələ də davam etdiyini təəssüflə bildirən Angeliki Ziaka belə münaqişələrin aradan qaldırılması və baş verməsinin qarşısının alınması üçün səylərin birləşdirilməsinin zəruriliyini qeyd edib. O, dinin vətəndaş cəmiyyətinin daim ayrılmaz hissəsi olaraq qalacağını deyib, bu istiqamətdə çalışanların elmi araşdırmalarının əhəmiyyətini vurğulayıb. UNESCO-nun Özbəkistan üzrə təmsilçisi Krista Pikkat Bakıda Mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşünün təşkilinə görə UNESCO-nun baş direktoru İrina Bokovanın adından Azərbaycan hökumətinə minnətdarlıq edib. Mədəni irsin qorunması və təşviqi ilə bağlı UNESCO-nun növbəyini diqqətə çatdıran K.Pikkat deyib ki, qlobal sülhün qorunmasında xalqların iştirakı vacibdir. Xalqların isə milli mənəvi dəyərləri, xüsusilə dini azadlığı nəzərə alınarsa, onlar qlobal sülhün qorunmasında daha fəal iştirak edərlər. Sonra çıxışlar ətrafında fikir mübadiləsi aparılıb.

Müzakirələrdə müvafiq mövzu ilə bağlı dünyada mövcud olan problemlərlə yanaşı, ölkələrin müsbət təcrübələri də qeyd olunub. Diqqətə çatdırılıb ki, Bakının mədəniyyətlərarası dialoqa dair forumların, dini liderlərin sammitlərinin davamlı olaraq keçirildiyi ünvana çevrilməsi təqdirəlayiq nümunədir. Mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşünün bağlanış mərasimində Avropa Şurasının demokratiya, Avropa quruculuğu və dinlər qrupunun vitse-prezidenti Qabriel Nissim, Avropa Kilsələr Konfransının kilsə və cəmiyyət komissiyası, insan hüquqları və kommunikasiya üzrə icraçı katib Elizbeta Kitanoviç, Strasburq şəhərinin ravvini Mendel Samama iki gün ərzində keçirilmiş panel iclaslara dair hesabat məruzəsi ilə çıxış ediblər. Məruzələrdə müzakirələrin məhsuldar keçdiyi bildirilib, müvafiq problemlərin həllində əməkdaşlığın vacibliyi vurğulanıb. Daha sonra Avropa Şurasının demokratik vətəndaşlıq və iştirak departamentinin direktoru Jan-Kristof Basın "Mübadilə görüşlərinin mədəniyyətlərarası və dinlərarası dialoqa töhfəsi: perspektivlər" mövzusunda yekun məruzəsi dinlənilib. O, dinlərarası mübadilənin bu gün çox vacib olduğunu bildirib, Avropa qitəsində ən faydalı, mənalı mübadilə yollarının tapılmasına dair təkliflərini irəli sürüb, sülh şəraitində yaşamağın prioritet olduğunu vurğulayıb. 2014-cü il üzrə mübadilə görüşünün həmsədrləri, Slovakiyanın və Portuqaliyanın Avropa Şurasındakı daimi nümayəndələri Drahoslav Stefanek və Luis Filip Kastro Mendes müzakirə olunmuş mövzuların aktuallığından bəhs ediblər. Onlar Bakı görüşünün dinlər və mədəniyyətlərarası əməkdaşlığa töhfə verəcəyinə əminliklərini bildiriblər. Bununla da "Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə" mövzusunda 2014-cü il mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşü başa çatıb.

# Vətənpərvərlik, milli dövlətçiliyə sədaqət və milli maraqlar uğrunda prinsipiallıq KİV-lərin fəaliyyətinin başlıca prinsipləri olmalıdır

*Akademik Ramiz Mehdiyev: "Müasir dövrdə medianın ən mühüm funksiyalarından biri də milli maraqları hər şeydən üstün tutmaq, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməkdir"*



***Məlum olduğu kimi, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətli tərəqqi dövrünü yaşayır. Bu mənada, ölkəmizin beynəlxalq nüfuzu gündən-günə yüksəlir, ölkədə demokratik islahatların, vətəndaş cəmiyyəti quruculuğunun daha da dərinləşdirilməsi sahəsində mühüm nailiyyətlər əldə olunub, həmçinin söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişafı istiqamətində həyata keçirilən dövlət siyasəti uğurlu nəticələr verib. Bununla yanaşı, Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlər ölkəmizi cəlbedici geostrateji məkana çevirib.***

Əlbəttə ki, Azərbaycanın sürətli inkişafı və əldə etdiyi nailiyyət bir sıra xarici antimilli qüvvələri, xüsusilə də, erməni lobbisini narahat edən başlıca amilə çevrilib. Bu baxımdan da, onlar Azərbaycandakı "beşinci kolon" vasitəsilə ölkəmizin siyasi-ictimai sabitliyinə xələl gətirmək və dinamik inkişafı böhranla əvəzləməyə cəhdlər göstərirlər. Məhz bu məqsədlə Azərbaycanda yaradılmış demokratik mühitdən sui-istifadə edən antimilli ünsürlərin vasitəsilə siyasi şoular düzənləməyə çalışırlar. Təbii ki, qanunu pozanların hər biri layiqli cəzasını alır və hətta hüquqi çərçivədə lazımi addımlar atılır. Bununla bağlı avqustun 29-da keçirilmiş dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin müşavirəsində çıxışı zamanı mövqeyini bildirən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev qeyd edib ki, Azərbaycanın müasir inkişafı, güclü və yüksək beynəlxalq nüfuza malik dövlətə çevrilməsi, regionda aparıcı rolu, qlobal siyasətdə, beynəlxalq təşkilatlar çərçivəsində nümayiş etdirdiyi fəallıq müəyyən xarici qüvvələri, xüsusilə də Ermənistanı, erməni lobbisini və onun maraqlarını təmsil edən ayrı-ayrı dairələri ciddi narahat edir. Azərbaycanın mövcud tolerant mühitindən, ölkədəki demokratik ab-havadan, hakimiyyətin humanist siyasətindən sui-istifadə edən bu dairələr və bəzi daxili qruplar cəmiyyəti çaşdırmaq, ictimai-siyasi sabitliyi pozmaq, ölkəmizin əldə etdiyi mühüm uğurları ləkələmək üçün ciddi səy göstərirlər. O, qeyd edib ki, müxtəlif xarici anti-Azərbaycan dairələrin və onların nəzarətində olan daxili qrupların təxribatçı fəaliyyəti heç zaman hakimiyyəti öz iradəsindən, müstəqil siyasətindən çəkindirməyəcək, cəmiyyəti müəyyən olunmuş inkişaf yolundan, strateji seçimindən geri döndərməyə nail olmayacaq. Bundan sonra da Azərbaycanın milli maraqlarına və qanunvericiliyinə zidd fəaliyyətə görə müvafiq ölçü götürüləcək.

O da qeyd olunmalıdır ki, Azərbycanın daxilindəki bəzi qüvvələr bilərəkdən ölkəmizin milli təhlükəsizliyini təhdid altına ala biləcək addımlar da ataraq dövlətimizin mövqelərinə zərbələr vurmağa çalışırlar. Biz bunu iyul ayının 31-də Ermənistan-Azərbaycan dövlət sərhədində və qoşunların təmas xəttində müşahidə olunan gərginlik zamanı bir sıra informasiya vasitələri ya populizm, ya da maddi maraqları naminə ölkəmizin informasiya təhlükəsizliyinə xələl gətirməyə cəhd edirdilər. Hətta onlar ordumuzun dislokasiyası haqqında belə məlumatları ictimailəşdirməkdən çəkinmirdilər. Bu işdə isə radikal müxalifətin nəzarətində olan KİV xüsusi fəallıq göstərirdi.

Administrasiyanın rəhbəri Ramiz Mehdiyev məsələ ilə bağlı qeyd edib ki, avqustun əvvəlində Ermənistan-Azərbaycan dövlət sərhədində və qoşunların təmas xəttində müşahidə olunan gərginlik bəzi kütləvi informasiya vasitələrinin, xüsusilə internet resurslarının qanunvericiliyin tələblərinə zidd və qeyri-peşəkar fəaliyyətini, habelə aidiyyəti dövlət orqanlarının informasiyanın verilməsinə məsul olan struktur bölmələrinin öz funksiyalarını lazımi qaydada yerinə yetirə bilməməsini açıq nümayiş etdirib. Ramiz Mehdiyev cəbhə xəttində vəziyyət barədə yanlış məlumatlar, hərbi hissələrimizin dislokasiyası və hərəkəti, həlak olmuş hərbçilərin sayının süni şəkildə şişirdilməsi və bu mövzuda müxtəlif spekulyativ informasiyaların yayılması, cəbhə bölgəsində yaşayan əhali və ölkə ictimaiyyəti arasında çaşqınlıq yaratmaq cəhdləri, düşmənin maraqlarına xidmət edən məlumatların sızdırılması və s. barədə konkret faktlar göstərib.

Təbii ki, sözügedən KİV-lər və ayrı-ayrı subyektlər Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasının 7.9.3. dövlət sirlərinin aşkarlanmasına yönəlmiş qəsdlər və 7.9.4. digər ölkələr tərəfindən informasiya təcavüzü, beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin təhrif edilməsi maddələrinin üzərinə çıxmış olurlar.

Buna görə də, akademik Ramiz Mehdiyev xəbərdarlıq edib ki, dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlar dövlət sirri kateqoriyasına şamil edilir və onların ictimailəşdirilməsi qanuna müvafiq məsuliyyət yaradır. Beynəlxalq praktikada belə hallarda qanunvericiliyin tələblərinə uyğun sanksiyaların tətbiq olunduğunu diqqətə çatdıran Ramiz Mehdiyev deyib: "**Formasından və məzmunundan asılı olmayaraq Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə istənilən qəsdə və ya qəsd cəhdlərinə, o cümlədən cəmiyyətin informasiya təhlükəsizliyini və milli maraqlarını təhdid edən hallara qarşı hüquqi çərçivədə zəruri addımlar atılmalıdır və xəbərdarlıq edirəm ki, bundan sonra da atılacaqdır**".

Məhz bütün bunları nəzərə alaraq qeyd etmək yerinə düşər ki, Azərbaycanın hazırkı vəziyyətində mətbuat xüsusi fəallıq nümayiş etdirməli və neqativ halların qarşısını almalıdır. Bunun üçün isə əlbəttə ki, ilk növbədə vətənpərvərlik, milli dövlətçiliyə sədaqət və milli maraqlar uğrunda prinsipiallıq KİV-lərin fəaliyyətinin başlıca prinsipləri olmalıdır. Akademik Ramiz Mehdiyevin sözlərilə desək, müasir dövrdə medianın ən mühüm funksiyalarından biri də milli maraqları hər şeydən üstün tutmaq, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməkdir. Vətənpərvərlik, milli dövlətçiliyə sədaqət, milli maraqlar uğrunda prinsipiallıq KİV-lərin fəaliyyətinin başlıca prinsiplərini təşkil etməlidir. KİV-lər cəmiyyətdə, xüsusilə gənc nəsil arasında Vətənə sevgi hisləri, insanlara mənəvi saflıq aşılamalı, onlarda əsl vətəndaşlıq mövqeyinin formalaşmasına dəyərli töhfəsini verməlidir.

***"Səs" Analitik Qrupu***

## Hans-Eberhard Şlayer: Azərbaycanın dinamik inkişafı heyranlıq doğurur



***Sentyabrın 2-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Alman-Azərbaycan Forumunun idarə heyətinin sədri, Alman Mərkəzi Sənətkarlar Birliyinin keçmiş baş katibi, sabiq dövlət katibi Hans-Eberhard Şlayerin, Bundestaqın deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Karin Ştrentsin, "Almaniya-İsrail Cəmiyyəti"nin sədri Raynold Robbenin, Alman-Azərbaycan Forumunun baş katibi, keçmiş dövlət katibi Mixael Andreas Butsun və "Almaniya İqtisadiyyatının Şərq Komitəsi"nin icraçı direktoru Rayner Lintnerin daxil olduğu Almaniya nümayəndə heyəti ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, E.Məmmədyarov Azərbaycan ilə Almaniya arasında əlaqələrin mövcud səviyyəsinin məmnunluq doğurduğunu qeyd edib. O, Almaniya şirkətlərini sürətlə inkişaf edən Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində, xüsusilə qeyri-neft sektorunda daha fəal rol oynamağa dəvət edib.***

Hans-Eberhard Şlayer Almaniya-Azərbaycan Forumunun fəaliyyəti haqqında danışaraq bu qurumun ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni əlaqələrin dərinləşməsinə töhfə vermək məqsədi daşıdığını bildirib. O, Azərbaycanın dinamik inkişafının heyranlıq doğurduğunu qeyd edib, ölkəmizin regional sülh və sabitliyin təmin olunmasında oynadığı əhəmiyyətli rolu vurğulayıb. Regional sülh və təhlükəsizlikdən danışan E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsinin bölgənin hərtərəfli inkişafı üçün başlıca manea olduğunu diqqətə çatdırıb. O, münaqişənin həll olunmasının bütün Cənubi Qafqaz regionu üçün geniş imkanlar aça biləcəyini deyib. Xarici siyasət idarəsinin rəhbəri vurğulayıb ki, münaqişənin həll edilməsi üçün ilk növbədə Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan torpaqlarını tərk etməlidir. Karin Ştrents Azərbaycana xüsusi rəğbət bəslədiyini deyərək, parlament üzvlərinin qarşılıqlı səfərlərinin ölkələr arasında əlaqələrin inkişafında mühüm rol oynadığını qeyd edib və tərkibində Almaniyanın siyasi-iqtisadi dairələrinin təmsil olunduğu bu nümayəndə heyətinin səfərinin çox faydalı olduğunu diqqətə çatdırıb. E.Məmmədyarov ölkələr arasında əməkdaşlığın inkişaf etdirilməsində parlament diplomatiyasının xüsusi rola malik olduğunu vurğulayıb. Görüşdə qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Ekologiya və təbii sərvətlər naziri Ağstafa şəhərində vətəndaşların qəbulunu keçirəcək

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların problemlərinin həllinə kömək göstərirlər. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov sentyabrın 12-də saat 10:00-da Ağstafa şəhərində vətəndaşları qəbul edəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının inzibati binasında keçiriləcək qəbulda Ağstafa, Qazax və Tovuz rayonlarından olan vətəndaşlar iştirak edə bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşlardan qeydiyyatdan keçmək üçün ekologiya.nazirliyi@gmail.com və ecologiya.nazirliyi@eco.gov.azelektron poçt ünvanları, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 168 nömrəli "Qaynar xətt"i, həmçinin 2 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsi ilə əlaqə saxlamaları (ünvan: Qazax şəhəri, H.Z. Tağıyev - 78, əlaqə telefonları: 055 807 27 71; 050 330 95 49; 055 373 84 20; 022 29 539 84 ) xahiş olunur.

# Siyavuş Novruzov: “İstər Əli Əhmədov, istərsə də Mübariz Qurbanlı yenə də mütəmadi partiyadadırlar”

*Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, Milli Məclisin üzvü Siyavuş Novruzovun APA-ya müsahibəsi.*



***- Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunan şəxslərin yüksək vəzifələrə təyinatlarından sonra partiyada vəziyyət necədir?***

- Bizim partiya 600 min nəfərdən çox üzvü olan böyük bir partiyadır. Bütün bunlara baxmayaraq, təyinatlardan sonra istər Əli Əhmədov, istərsə də Mübariz Qurbanlı yenə də mütəmadi partiyadadırlar. Partiyanın işi ilə yenə məşğul olurlar. Hazırda partiya bələdiyyə seçkilərinə hazırlaşır. Seçki proqramı artıq İdarə Heyətində təsdiqlənib və yerli təşkilatlarda bu istiqamətdə iş qurulub. Bələdiyyə seçkilərində irəli sürüləcək namizədlərlə bağlı təhlillər aparırıq. Yəni kimlərin növbəti dəfə namizədliyi irəli sürüləcək, kimlərin namizədliyi irəli sürülməyəcək və yeniləri ilə əvəzlənəcək... Bizim kifayət qədər gənclərimiz var ki, onlar YAP-ın seçki kampaniyalarında aktiv şəkildə fəaliyyət göstərəcəklər. Onların arasından bizim namizəd göstərəcəyimiz şəxslər də olacaq.

***- Yeni namizədlərdən danışdınız. Bələdiyyə orqanlarında YAP-dan seçilərək indiyə qədər çalışanlar arasında partiyanın etimadını doğrultmayanlar varmı?***

- Var. Hazırda bununla bağlı partiyada araşdırma aparılır. Qarşıdakı bələdiyyə və parlament seçkiləri ilə əlaqədar bizi təmsil edənlərin indiki fəaliyyəti barədə tədqiqat aparırıq. Bu, bir neçə kateqoriya üzrədir: seçildiyi dövrdə bu insanların davranışı, onlara göstərilən etimadı doğruldub-doğrultmaması və s. Bu tədqiqat başa çatdıqdan sonra seçkilərdə onlara etimad göstərilib-göstərilməməsi barədə qərar qəbul olunacaq.

***- Belə başa düşdüm ki, Mübariz Qurbanlı dövlət vəzifəsinə təyinatdan sonra partiyadakı vəzifəsində qalacaq.***

- Bəli. Mübariz Qurbanlı bu gün də partiyadakı fəaliyyətini davam etdirir. Amma gələcəkdə onunla bağlı hansı qərarın verilib-verilməyəcəyini mən indi deyə bilmərəm.

***- Növbəti il parlament seçkiləridir. Qeyd etdiyiniz kimi, o seçkilərə də hazırlıq müəyyən mənada indidən başlayıb. Seçkilərə hansı yeniliklərlə hazırlaşırsınız?***

- Təbii ki, parlament seçkilərinə az vaxt qalıb və biz hazırda öncə bələdiyyə seçkilərinə hazırlaşmağımıza baxmayaraq, buna da diqqət yönəltmişik. Amma bəzi partiyalar var ki, ətrafına beş-on nəfər yığmaqdan ötrü partiya üzvləri üçün vacib olan bələdiyyə seçkilərini deyil, ondan sonra gələcək parlament seçkilərini daha çox önə çıxartmağa çalışır. Həmin partiyalar Azərbaycanda sosial bazaya malik olmadığına və kağız üzərində, qəzetlərdə fəaliyyət göstərdiyinə görə, müəyyən adamları çaşdırıb özlərinə tərəf çəkmək üçün parlament seçkilərində onları namizəd kimi ortaya atırlar. Amma bu, onların yalnız bir il də ömür sürmələrinə, qəzet səhifələrində bir il də yaşamalarına xidmətdən başqa bir şey olmayacaq. Biz isə tezliklə bələdiyyə seçkiləri başa çatdıqdan sonra tədqiqatlarımızı yekunlaşdırıb parlament seçkilərinə start verəcəyik.

Əsasən, parlament seçkilərinə hazırlıq bu ilin dekabrından başlayacaq və onda biz öz qərarımızı açıqlamağa başlayacağıq. YAP-ı təmsil edən hər bir kəsin parlamentdəki fəaliyyəti, seçicilər arasındakı nüfuzu, davranışı, mənəvi və digər keyfiyyətləri müzakirə olunduqdan sonra partiya rəhbərliyi, başda partiyanın sədri olmaqla, öz qərarını verəcək. Aydın olacaq ki, kim növbəti seçkilərə gedir, kim isə getmir.

***- Sizin özünüzün də dövlət vəzifəsinə irəli çəkiləcəyiniz barədə danışırlar. Bu barədə nə deyə bilərsiniz?***

- Mən partiya sədrinin qərarına tabeyəm. Mənim barəmdə hansı qərar qəbul olunacaqsa, o qərarı icra edəcəyəm.

# Hafiz Paşayev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovla görüşüb



***Azərbaycan Respublikası xarici işlər nazirinin müavini, “ADA” Universitetinin rektoru Hafiz Paşayev Beynəlxalq Humanitar Elmlər və İnkişaf Universitetinin açılış mərasimində iştirak etmək məqsədi ilə Türkmənistanın paytaxtı Aşqabadda səfərdə olub. Təntənəli açılış mərasimindən sonra Hafiz Paşayev universitetin rəhbərliyi ilə görüşüb. Görüşdə ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edilib.***

Sonra Hafiz Paşayevi Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov qəbul edib. Diplomat Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını və xoş arzularını Türkmənistan dövlətinin başçısına çatdırıb. Onun da səmimi salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırmağı xahiş edən Türkmənistan dövlətinin başçısı ölkələrimiz və xalqlarımız arasında çoxəsrlik dostluq və mehriban qonşuluq münasibətlərinin əhəmiyyətini vurğulayıb, əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu bildirib. Görüşdə Türkmənistan-Azərbaycan dialoqunun hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Hafiz Paşayev son illər Azərbaycan ilə Türkmənistan arasında ticari-iqtisadi və mədəni-humanitar əməkdaşlığın dərinləşməsinin, həmçinin yanacaq-enerji və nəqliyyat-kommunikasiya sahələrində qarşılıqlı əlaqələrin genişlənməsinin önəmini vurğulayıb.



Təhsil sahəsində əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məsələlərindən danışan Hafiz Paşayev yeni istifadəyə verilən Aşqabad Beynəlxalq Humanitar Elmlər və İnkişaf Universitetinin Türkmənistanda tədrisin beynəlxalq səviyyədə təşkili üçün çox yaxşı imkanlar açacağını deyib. Görüşdə vurğulanıb ki, dövlətlərimizin başçıları arasında dostluq və qarşılıqlı hörmət münasibətləri mövcud konstruktiv dialoqun bütün istiqamətlərdə dərinləşməsinə, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişlənməsinə töhfə verir.

Qeyd edilib ki, Xəzər regionunda qonşu olan ölkələrimiz müasir dövrün aktual problemlərinin həllinin daha optimal yollarının axtarılmasında strateji tərəfdaşlar kimi çıxış edirlər. Bu problemlərin ən vacibi, ilk növbədə, qlobal enerji təhlükəsizliyinin təmin edilməsidir.

Səfər çərçivəsində H.Paşayev Türkmənistanın xarici işlər naziri R.Meredov, Xarici İşlər Nazirliyinin nəzdində Beynəlxalq Münasibətlər İnstitutunun rektoru B.Zaxırov ilə də görüşüb. Görüşlərdə Azərbaycanın Türkmənistandakı səfiri Vəhdət Sultanzadə də iştirak edib.

***İlahə Əhmədova***
***AzərTAc-ın xüsusi müxbiri***
***Aşqabad***

# “Bakı-2015” Avropa Oyunları ilə “Milla” şirkəti arasında rəsmi tərəfdaşlıq sazişi imzalanıb

Baku 2015
1st EUROPEAN GAMES
milla
Baku 2015 Official Dairy Supplier

***“Bakı-2015” Avropa Oyunları ilə yüksək keyfiyyətli süd təchizatçısı olan “Milla” şirkəti arasında rəsmi tərəfdaşlıq sazişi imzalanıb. AzərTAc xəbər verir ki, sazişə əsasən, “Milla” şirkəti Azərbaycanda 5000-dən artıq dükanda reklam işi aparacaq, bütün məhsullarının və işçilərinin uniformalarının üzərində “Bakı-2015” loqosunu yerləşdirəcək.***

Həmçinin daxilində dondurmaların olacağı furqonlar vasitəsilə də şirkətin məhsulları “Bakı-2015” yarışlarının keçiriləcəyi obyektlərdə görünəcək. Şirkət televiziyada geniş reklam kampaniyası aparmaqla da Avropa Oyunlarını dəstəkləyəcək. “Bakı-2015” Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleqq “Milla”nın Azərbaycanda tanınmış və çox sevilən brend olduğunu diqqətə çatdırıb. Bildirib ki, biz onları Avropa Oyunlarının rəsmi tərəfdaşı kimi salamlamaqdan məmnunuq. Əməkdaşlığa görə şirkət təbliğat işləri aparmaqla və ölkənin hər yerinə mallarını çatdırdığı furqonların üzərində “Bakı-2015” brendini təsvir etməklə bütün Azərbaycan ərazisində Avropa Oyunlarının reklamını həyata keçirəcək.

“Milla” şirkətinin idarəetmə üzrə direktoru Filip Rayt deyib: “Biz “Bakı-2015”in rəsmi tərəfdaşı olmaqla Avropa Oyunları ailəsinə qoşulduğumuz üçün çox şadıq. Avropa Oyunları Azərbaycanın tarixinə heyrətamiz anlar kimi daxil olacaq və biz bütün Avropanın zövq alacağı idman yarışlarına gedən yolun bir hissəsi olduğumuz üçün fəxr edirik”.

“Bakı-2015” Avropa Oyunları Əməliyyat Komitəsinin kommersiya şöbəsinin direktoru Çarli Viceratna bildirib ki, “Milla”nın Azərbaycanda tanınan bir brend olması bu şirkətin “Bakı-2015”in ideal tərəfdaşı olduğunu göstərir və onların dəstəyinə etibar etmək çox gözəldir. “Milla” “McDonalds” və “Tickethour”dan sonra “Bakı-2015” Avropa Oyunlarının üçüncü rəsmi tərəfdaşıdır.

# Azərbaycan informasiya texnologiyaları sahəsində regional mərkəzə çevrilir

## *İlham Əliyev: "İKT bazarında qlobal oyunçulardan birinə çevrilmək əzmindəyik"*

***Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən biri olmaqla, ölkənin intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın, demokratiyanın inkişafının əsas göstəricilərindəndir. Son illər Azərbaycanın İKT sektoru hər 3 ildə 2 dəfə genişlənib və son 8-10 il ərzində sahə üzrə orta illik artım tempi 25-30 faiz təşkil edib.***



### Son 10 ildə İKT sektorunun dinamik inkişafı

Prezident İlham Əliyevin **"Qara qızılı insan qızılına, intellektual potensiala çevirək"** tezisi son 10 ildə Azərbaycan cəmiyyətində İKT-nin inkişafını stimullaşdıran başlıca amilə çevrilibdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, informasiya-kommunikasiya texnologiyaları sahəsi böyük potensiala malikdir: **"Bizim bu sahəyə dəstək göstərilməsi ilə bağlı dövlət siyasətimiz vardır. Eyni zamanda, özəl sektor da bu sahədə çox fəal iştirak edir. Biz informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına görə bölgədə artıq aparıcı ölkəyə çevrilmişik və gələcəkdə də bu mövqeyimizi saxlamaq və İKT bazarında qlobal oyunçulardan birinə çevrilmək əzmindəyik".**

Əgər 2003-cü ildə İKT sektoru üzrə gəlirin 65,8 faizi qeyri-dövlət rabitə müəssisələrinin payına düşürdüsə, 2008-ci ildə bu rəqəm 80,3 faizə yüksəlmiş, 2003-2008-ci illər ərzində bu sektorda 5500-dən çox yeni iş yerləri açılıbdır. 2008-2012-ci illər ərzində Azərbaycanın İKT sektoru 5 dəfə artmışdır. Bununla 7-8 ildir ki, Azərbaycanın İKT sahəsinin orta illik artım tempi 25-32 faiz təşkil edir və bu da dünya göstəricisini 2-2,5 dəfə üstələyir. Respublikamız İKT-nin inkişaf göstəricilərinə görə son 5-7 ildə ən dinamik inkişaf edən 10 ölkə qrupuna daxil olubdur.

Ümumilikdə 2012-ci ildə İKT sektorundan əldə olunan gəlirlər 1750 milyon dollar təşkil etmişdir və bu da 2003-cü illə müqayisədə 6 dəfə çoxdur. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən, bu məbləğin 2020-ci ildə 9 milyard ABŞ dollarına çatdırılacağı planlaşdırılır. Ötən 10 ilin ən böyük uğurlarından biri də Azərbaycanın kosmik peyki olan ölkələr sırasına qoşulmasıdır. 2008-ci ildə Prezident İlham Əliyev "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" Sərəncam imzalamış, kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı qəbul olunmuş, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti təsis edilmişdir. Bu istiqamətdə həyata keçirilən uğurlu fəaliyyətin nəticəsi olaraq 2013-cü il fevral ayının 8-də Azərbaycan Respublikasının ilk telekommunikasiya peyki - "Azərspace-1" uğurla orbitə buraxılıbdır. Azərbaycanın ilk telekommunikasiya peykinin buraxılması ölkəmizdə kosmik sənayenin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində mühüm addım olmaqla yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. "Azərspace-1" peyki yaxın gələcəkdə bütün Azərbaycan ərazisində keyfiyyətli televiziya və radio yayımını, ötürülən bütün məlumatlara daha yaxşı nəzarət olunması, müxtəlif elektron hökumət layihələrinin həyata keçirilməsi, həmçinin məsafədən təhsil və elektron səhiyyə kimi mühüm proqramlar üçün əlverişli platforma yaradacaqdır.

Ölkədə internet istifadəçilərinin sayının kəskin artımı da son 10 ilin mühüm uğurlarından biridir. 2003-cü ildə ölkədə hər 100 nəfərə 7 internet istifadəçisi düşürdüsə, hazırda bu rəqəm 70-ə yüksəlmişdir. "Dünya İqtisadi Forumunun Qlobal İnformasiya Texnologiyaları - 2012" hesabatında Azərbaycan "Şəbəkələşmə hazırlığı indeksi"nə görə əvvəlki mövqeyindən 9 pillə irəliləyərək, dünyanın 142 ölkəsi arasında 61-ci yerə yüksəlmişdir. Bu hesabata əsasən, Azərbaycan hər 100 nəfərə düşən internet istifadəçilərinin sayına görə MDB-də birinci yerdədir.





İKT sahəsində son illərin ən böyük uğurlarından biri də 2012-ci il dekabrın 21-də BMT-nin Baş Assambleyasında TASİM layihəsi üzrə yeni qətnamənin yekdilliklə qəbulu olubdur. Layihənin reallaşdırılmasına dəstək vermək məqsədilə Azərbaycan tərəfindən irəli sürülmüş qətnamə Avrasiya regionunda "rəqəmsal uçurum"un aradan qaldırılması üçün müvafiq telekommunikasiya infrastrukturunun inkişaf etdirilməsini, özəl və dövlət sektorları arasında əməkdaşlığın möhkəmləndirilməsini nəzərdə tutur. TASİM uzunmüddətli təşəbbüsdür və onun reallaşması iki mərhələdən ibarət olacaqdır.

### Perspektivdə olan layihələr

Azərbaycanda kosmik sənayenin inkişaf etdirilməsi məqsədlə Yerüstü İdarətemə Mərkəzinin tikilməsi, bu ilin fevral ayında orbitə ilk süni peykin buraxılması, ölkədə elektron xidmətlərin genişləndirilməsi perspektivdə olan layihələrdəndir.

Hesablamalara görə, 2020-ci ildə Azərbaycanda təxminən əhalinin 80 faizi elektron xidmətlərdən istifadə edəcək. İxracyönümlü, yeni və yüksək texnologiyalara əsaslanan məhsul və xidmətlərin istehsalı üçün hökumət gələcəkdə investisiyaların həcmini artırmağı da planlaşdırır və bunun üçün 2020-ci ilə qədər təxminən 3,6 milyard dollar xərclənməsi nəzərdə tutulur. Həmçinin, biz sektorun inkişafına birbaşa xarici investisiyalar və özəl sektordan təxminən eyni miqdarda investisiyanın yatırılması gözlənilir.

Əlbəttə, qeyd olunan faktlar Prezident İlham Əliyevin rəhbərliyi altında son 10 ildə əldə olunmuş möhtəşəm uğurların yalnız cüzi qismini əhatə edir. Prezident İlham Əliyevin son 10 ildə ölkəyə rəhbərliyinin ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, milli inkişaf modeli var.

***R.KAMALQIZI***

# ““Azadlıq” qəzetçilik simasını itirib”



*“Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə keçirilən müşavirədə çox vacib və dəyərli məsələlərlə bağlı müzakirələr aparıldı. Müşavirədə hər bir Azərbaycan vətəndaşının ürəyindən keçən fikirlər ifadə olundu”. Bu sözləri “Səs” TV-yə açıqlamasında “İki sahil” qəzetinin baş redaktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə ötən həftə Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin sədrliyi ilə media qurumlarının rəhbərləri ilə keçirilən müşavirədə səslənən fikirlərə münasibət bildirərkən deyib.*

Vüqar Rəhimzadənin sözlərinə görə, akademik Ramiz Mehdiyev Azərbaycan cəmiyyətini düşündürən, hər bir fərd üçün dəyərli və əhəmiyyətli olan informasiya təhlükəsizliyi ilə bağlı konkret məsələləri müşavirə iştirakçılarının nəzərinə çatdırıb: “**Ümumiyyətlə, Azərbaycanda güc strukturları müəyyən mənada qapalı qurumlardır. Ordunun qüdrətinin artması dövlətin gücünün göstəricilərindən və başlıca şərtlərindəndir. Bununla bağlı yanlış informasiyaların Azərbaycanın həm elektron, həm də yazılı mətbuatında yer alması, həmin məlumatları Azərbaycanda olan satqın insanların bəzi beynəlxalq təşkilatların və qurumların nəzərinə çatdırması və bunun əsasında qeyri-dəqiq rəyin formalaşdırılması halları olur. Bu cür hallar milli və dövlətçilik maraqlarına zərbə vurmaq cəhdindən başqa bir şey deyil**”.

V. Rəhimzadə bildirib ki, Azərbaycanda satqın, xəyanət yolu tutan QHT nümayəndələri ilə yanaşı, media əməkdaşları da var: “**Bu sırada dağıdıcı və radikal müxalifət mətbuat orqanları fəallıqları ilə seçilirlər. Xüsusilə “Azadlıq” qəzetini buna misal çəkmək olar. “Azadlıq” qəzetinin yazıları qərəz, şər və böhtandan ibarətdir. Bu qəzetin məqsədi Azərbaycanda dövlətin imicini sarsıtmaq, dövlətçiliyə xələl gətirmək, insanlara qarşı qərəz, şər-böhtan yaxmaqdan ibarətdir. Bu ölkənin suyunu içib, çörəyini yeyəsən, havasını udasan, amma dövlətinin mənafeyinə zərbə vurasan. Belələrinə yalnız xəyanətkar və satqın insan demək olar**”.

V. Rəhimzadə bildirdi ki, “Azadlıq” qəzetçilik simasını itirib: “Əli Kərimli kimi satqın insanlar bu qəzet vasitəsilə öz çirkin niyyətlərini həyata keçirməyə çalışırlar. Bu baxımdan demək olar ki, qəzetin əməkdaşları da Azərbaycanla bağlı düşmən mövqeyində olan insanlardır. Belə olmasaydı bunların qəzetlərində Azərbaycanla bağlı dərc olunan şər-böhtanı düşmən erməni mətbuatı öz səhifələrində, erməni mətbuatında dərc olunanları isə bunlar öz səhifələrində dərc etməzdilər. Buna satqınlıq və xəyanətdən başqa ad vermək mümkün deyil. Mətbuat Şurası olaraq, digər məsələlərlə də bağlı biz dəfələrlə “Azadlıq” qəzetinə xəbərdarlıq etmişik”.

# “Qərəz, şər, yalan və böhtan hər zaman yarı yolda qalıb”



*“Ümumiyyətlə, Azərbaycanda “siyasi məhbus” anlamını izah edə biləcək heç bir tərif, ya da motiv yoxdur”. Bu fikirləri SİA-ya açıqlamasında Zəngin Azərbaycan Uğrunda İctimi Birliyinin (ZAUM) sədri İradə Əliyeva Beynəlxalq Vətəndaş Cəmiyyəti Forumunun ölkəmizdə “siyasi məhbuslarla” bağlı yaydığı qərəzli bəyanata münasibətini bildirərkən deyib.*

ZAUM sədri bununla bağlı qeyd edib ki, sözügedən məsələ hər zaman ölkəmizin yüksələn imicinə zərbə vurmağa çalışan qüvvələr tərəfindən süni şəkildə qabardılır və burada ilkin məqsəd kimi Qərbdə fəaliyyət göstərən qaranlıq siyasi dairələrin Azərbaycana təzyiq göstərməsi amili dayanıb: “**Bu gün güclü Azərbaycanın daha da qüdrətlənməsi söz yox ki, bir sıra dairələri ciddi şəkildə narahat etməyə başlayıb. Bu baxımdan, hazırda həbsə olan, istintaqları gedən və haqqlarında məhkəmə hökmü çıxarılmayan insanlara indidən “siyasi məhbus” donunu geyindirmək sadəcə ölkəmizə qarşı yönələn təzyiqin bir hissəsi kimi qiymətləndirilməlidir. Əlbəttə ki, burada daxilimizdə olan, yəni sapı özümüzdən olan baltaların da fəaliyyəti şübhəsizdir. Onlar müəyyən müdafiə komitələri yaradaraq, məhz onları idarə edən tərəflərin təlimatlarını canla-başla icra edirlər. Əlbəttə ki, burada da şəxsi mənfəətlərin dayanması mövcuddur. Çünki bildiyimiz qədər hər hansı müdafiə komitəsi yaradılarkən, onun maliyyələşməsi üçün qrantlar ayrılır. Məhz bu qrantları əldə etmək üçün indi də müdafiə komitələri yaradılır. Onlar guya həbsə olan insanların “müdafiəsini” təşkil edirlər. Ancaq sual yaranır ki, müdafiə komitələri adı altında fəaliyyət göstərən qrant həvəskarları burada nə qədər səmimidirlər?**”.

İradə Əliyeva eyni zamanda vurğulayıb ki, belə bəyanatların yayılması həm də Qərbdə fəaliyyət göstərən erməni lobbisinin canfəşanlığı sayəsində yaranır: “Əlbəttə ki, xarici ölkələrdə fəaliyyət göstərən erməni lobbisi də burada öz rolunu oynamaqdadır. Demək belə anlaşılır ki, yuxarıda da qeyd etdiyim kimi, sapı özümüzdən olan baltalar eyni zamanda erməni lobbisinin maraqlarını müdafiə edirlər. Çünki o da bəllidir ki, nə Leyla və Arif Yunuslar, nə Rauf Mirqədirov, nə Rəsul Cəfərov nə də di digərləri heç də siyasi motivlərlə həbs olunmayıblar. Onlar ilk növbədə Vətənə xəyanətdə, erməni kəşfiyyatına işləməkdə, vergidən yayınmaqda və s. məsələlərdə ittiham olunurlar. İstintaq gedir, ancaq istintaq başa çatmamış onların hər birinin üzərlərində “siyasi məhbus” donu olur. Deməli, bütün bunlar öncədən planlaşdırılmış məsələlərdir.

Digər tərəfdən, əgər xatırlayırsınızsa, Rauf Mirqədirov yeni həbs edilərkən, o demişdi ki, Ermənistanda apardığı danışıqlarda, görüşlərdə tək olmayıb. Məgər bütün bunlar Vətənə xəyanətdə Leyla və Arif Yunuslar üçün, onları “siyasi məhbus” elan edənlər üçün sübut deyilmi?

Yaxud, Leyla Yunus daha öncədən bəyan edirdi ki, onu da həbs etsinlər. Bu da Azərbaycana qarşı sabotaj addım hesab edilə bilməzmi? Təbii ki, belə bir ajiotajların, şər və böhtanların, nəhayət, bəzi beynəlxalq ququrmların yaydıqları qondarma, qərəzli bəyanatların arxasında bir faktor dayanıb - Ya öz maraqlarını burada təmin etmək, ya da təmin olunmadığı halda ölkəyə qarşı mənfur təzyiqlər etməyə cəhdlər göstərmək”.

“Əlbəttə ki, belə cəhdlərin qarşısı alınıb, bu gün də alınmaqdadır”-deyə qeyd edən İradə Əliyeva daha bir maraqdoğurucu məqama toxunaraq vurğuladı ki, təkcə qonşu Gürcüstanda 90 nəfərə qədər siyasi motivlərlə bağlı həbs olunan insanlar var: “Bu gün Gürcüstanda belə insanlar var və onların hər biri bilavasitə siyasi baxışlarına, fəaliyyətlərinə görə həbs edilibllər. Və nəyə görə belə olan halda - Azərbaycanda “siyasi məhbus” olmadığı bir vəziyyətdə bəzi beynəlxalq təşkilatlar bu və ya digər şəkildə qərəzli bəyanatlar səsləndirərkən, Gürcüstanda baş verənlərə biganə qalırlar. Niyə Gürcüstanda mövcud olan 90 nəfər siyasi məhbuslarla bağlı hər hansı hesabat, bəyanat səsləndirilmir? Demək, biz burada bir daha Qərbin ölkəmizə qarşı yürütdüyü ikili standartların şahidi oluruq. Ancaq son olaraq, bir amili vurğulamaq istərdim. Yalan ayaq tutar yeriməz. Bu dəfə də belə olacağına kimsənin şübhəsi olmasın. Çünki qərəz, şər, yalan və böhtan hər zaman yarı yolda qalıb”.

***Rövşən Nurəddinoğlu***

## Araz Əlizadədən Rüstəm İbrahimbəyova ağıl dərsi



**“Deyirlər ki, adımı sənə qoyaram, səni də yana-yana. Başqasını təhqir edən insan, ilk növbədə özünü təhqir edir”.** Sözügedən fikirləri SİA-ya açıqlamasında Azərbaycan Sosial Demokrat (ASDP) partiyasının sədri Araz Əlizadə Rüstəm İbrahimbəyovun Eldəniz Quliyevin həbs olunacağı təqdirdə bunun Azərbaycanın beybəlxalq imici üçün yaxşı nəticə verməyəcəyi haqda dediyi fikirlərə münasibətini bildirərkən deyib. ASDP sədri xatırladıb ki, Eldəniz Quliyev heç bir şəkildə Azərbaycan polisinə qarşı təhqiredici fikir səsləndirməməliydi. Hətta o bu gün təhqir deyil, tənqid etdiyini iddia edirsə belə, bu iddia heç nəyi həll etmir: “**Çünki həmin təhqir edilib və bu mətbuatda da yaılıb**”. Rüstəm İbrahimbəyovun Eldəniz Quliyevin müdafiəsi ilə bağlı səsləndirdiyi fikirlərə gəlincə isə Araz Əlizadə deyib ki, Rüstəm İbrahimbəyov müəyyənləşdirə bilməyib ki, onun vətəni haradadır: “**Yəni vətənini müəyyənlşdirə bilməyən bir insan ümumiyyətlə, Azərbaycanda baş verən hər hansı bir məsələ ilə bağlı danışa bilməz.** Çünki Azərbaycanın həyatı var və bu həyat da azərbaycanlılar-buranı özünə Vətən hesab edənlər üçündür. Azərbaycanın həyatı buranı özünə Vətən hesab etməyənə aid deyil. Bu insanlar ki, var özlərini müxalifətçi hesab edirlər və s. onların heç biri əslində, özlərini azərbaycanlı saymırlar. Əgər onlar azərbaycanlı deyillərsə, getsinlər, otursunlar, danışsınlar ki, Fürusson şəhərində, ABŞ-da demokrat Amerika rəhbərliyi öz xalqına qarşı hansı divanı tutur. Getsinlər danışsınlar ki, bu gün həmin “demokratiyanın” sayəsində Ukraynada, Suriyada, İraqda minlərlə insan qətlə yetirilir, həyatlar sönür”. “**Yaxşı olardı ki, əgər Rüstəm İbrahimbəyov həqiqətən də insandırsa, onun insanlıqdan xəbəri varsa, bunlardan danışsın**”, - deyən Araz Əlizadə bildirib ki, əgər Rüstəm İbrahimbəyov ABŞ vətəndaşıdırsa, getsin Amerikada baş verən hadisələrdən danışsın: “ **Qoy o da Eldəniz Quliyevin burada polisləri təhqir etdiyi kimi orada desin ki, Amerika polisi köpəkdir, itdir və s. Bunlar hamısı bir xəmirdən yoğrulublar. Rauf Mirqədirov həbs ediləndə Leyla Yunus tumanını başına çəkidri ki, məni də tutsunlar. Çünki mən də onunla bir yerdə olmuşam, birgə fəaliyyət göstərmişəm. Ancaq həbs olunanda yenə də həmin tumanını çəkdi başına ki, bəs məni həbs etdilər. Ona görə də belələrinin nə danışdıqlarını təhlil etməyə ehtiyac görmürəm”.** Xatırladaq ki, Eldəniz Quliyev Azərbaycan polisini təhqir etdiyinə görə, daxili işlər naziri Ramil Usubov tərəfindən məhkəməyə verilib. Hazırda iş məhkəmənin icraatına götürülüb.

## Nizami Cəfərov: İki dövləti dərin tarixi və milli köklər bir birinə bağlayır

**“Türkiyənin yeni seçilmiş prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri ölkələrimizin münasibətlərinin dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını bir daha nümayiş etdirir. Bu münasibətlər yüksələn xətlə inkişaf edir”**. Bu fikirləri Milli Məclisin komitə sədri, Azərbaycan - Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Cəfərov bildirib. N.Cəfərov deyib ki, iki dövləti dərin tarixi və milli köklər bir birinə bağlayır. Millət vəkilinin sözlərinə görə, Azərbaycan və Türkiyə strateji müttəfiqlərdir və bu amil münasibətlərin inkişafında vacib rol oynayır. “**Maraqlı cəhətlərdən biri o odur ki, bu səfər Ermənistan prezidentinin yeni iddialarının meydana çıxdığı bir zamana təsadüf edir. İndiyə qədər Türkiyə Ermənistana müəyyən şanslar verib. Hətta vaxtilə sərhədlərin açılması ilə bağlı geniş müzakirələr də aparılmışdı. Yaxşı oldu ki, S.Sarkisyanın şəxsində Ermənistanın mövqeyi, iddiaları açıqlandı və məlum oldu ki, ermənilər hələ də xəyallarla yaşayır və buna görə də, onlara heç bir şans vermək mümkün deyil**”- deyə N.Cəfərov vurğulayıb.





# Ermənilərdən Ərdoğan üçün yeni tələ

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Erməni həyasızlığı daha yeni bir oyuna hazırlaşır. Deyəsən Serj Sarkisyan, Türkiyənin yeni prezidenti seçilən Rəcəb Tayyib Ərdoğan təzəcə kresposunda oturar-oturmaz, onun üzərindən yeni "erməni soyqırımı" planı hazırlayır. Erməni diasporu və Qərb liderləri Ərdoğanın prezidentliyini "yumaq üçün" çirkli plan qurublar. Ərdoğanın andiçmə mərasiminə qatılan Edvard Nalbandyan, onu gələn il Ermənistana səfərə dəvət edib. Özü də qondarma "erməni soyqırımı"nın 100 illiyinə - aprelin 24-də!***

Oxucuların yaxşı yadında olar ki, rəsmi Yerevan, Ərdoğanın "dava arkadaşı" olan və artıq keçmiş prezident kimi xatırlanan Abdullah Gül ilə də təxminən eyni oyun ssenarisi üzərində "işləmişdi". Lakin o zaman Azərbaycanın qəti etirazı və regionda baş verən kritik durum üzündən Ermənistan "futbol diplomatiyasını" yarımçıq buraxmışdı.

Sözsüz ki, ac-yalavac Ermənistan bu işi öz ağalarından xəbərsiz edə bilməzdi. Bunların da ağalarının sayı-hesabı yoxdur. Ermənilərə həm Rusiyada "atalıq" edirlər, həm də Vladimir Putinin bu gün amansız düşmənə çevrildiyi Qərbdə. Bunların bəxti onda gətirir ki, bu köçəri tayfanın "atalıq" baxımından dərdləri yoxdur. Dünya siyasətinin iki düşmən qütbü Ermənistan məsələsində vahid cəbhədən çıxış edirlərsə, Ukrayna üstündə qanlı-bıçaq olan Avropa ilə Moskva arasında "erməni soyqırımı" məsələsində sıx tərəfdaşlıq varsa, məncə, S.Sarkisyanın "futbol diplomatiyasını" bu dəfə Ərdoğanın üzərində sınaqdan keçirməyə cəsarətlənməsi dünya gücləri tərəfindən razılaşdırılıb. Yoxsa özünü zorla hakimiyyətdə saxlayan, yeri gəldi-gəlmədi Vladimir Putinə yaltaqlanmaq üçün min yola baş vuran S.Sarkisyan hara, yeni oyun qurub Türkiyəni siyasi qalmaqallara çəkmək hara?

Hər halda Barak Obama nə qədər Ərdoğanın prezident olması üçün əlindən gələni etsə də, onunla çalışmağı səbirsizliklə gözlədiyini hər həftə Dövlət Departamentinin dili ilə səsləndirsə də, yenə də ehtiyatı əldən buraxmamağı üstün tutub. Necə ki, neçə illərdir Almaniya, İngiltərə və ABŞ-ın Türkiyə dövlətinin mühüm şəxslərini dinlədikləri barədə "skandal" faktlar ortaya çıxıb. "Siyasətdə etibar yoxdur" prinsipi hətta yüz illik müttəfiqliyi belə dəfələrlə üstələyir. Türkiyəyə qarşı "casus qalmaqalı" deyəsən çox problemlər yaradacaq.

Gələk Sarkisyanın Ərdoğanı gələn ilin 24 aprelində Ermənistana dəvət etməsinə. Düzdür, Ərdoğanın bu dəvəti qəbul edib-etməyəcəyi hələ sual altındadır. Hətta deyərdim ki, qeyri-mümkündür. Çünki A.Güldən tam fərqli olaraq Ərdoğan dünya siyasətinə kifayət qədər bələd olan bir siyasətçidir və onu tələyə salacaq addımların baş tutması o qədər də real görünmür. Amma məsələnin başqa tərəfi var.

Sual olunur, bu fikrini ortaya atanlar Ərdoğanın bu siyasi oyuna gəlmək ehtimalının sıfıra yaxın olduğunu bilmirdilərmi? Şübhəsiz ki bilirdilər. Amma açıqca görünür ki, bu "ideya" yiyələrinə Ərdoğanın Yerevana səfər etməsindən daha çox, onun bu səfərdən boyun qaçırması daha çox lazımdır. Niyə? Çünki bu zaman həm Avropadakı erməni diasporu, həm də üzdə Türkiyənin "dostu" olub arxadan onun kürəyinə hər an qılınc saplamağa hazır olan Qərb dövlətləri rəsmi Ankaranı "öz tarixi ilə qarşılaşmaqdan" boyun qaçırmaqda ittiham etmək üçün əla fürsət qazanacaqlar. Necə ki, bir neçə il bundan əvvəl Fransa parlamenti belə bir iddia ilə çıxış edib "erməni soyqırımı"nı tanıyan qanun qəbul etdi. İndi növbə yeni plan əsasında başqa Avropa paytaxtlarınındır deyəsən. Belə görünür ki, ermənilər Türkiyənin yeni prezidenti üçün super "sürpriz" hazırlayırlar. Özü də 2015-ci ilin 24 aprelində!

# BMT-nin sabiq baş katibinə Nizami Gəncəvi mükafatı təqdim olunub

***Parisdə, UNESCO-nun mərkəzi qərargahında Birləşmiş Millətlər Təşkilatının 6-cı baş katibi Butros Butros Qali ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin icraçı direktoru Rövşən Muradov arasında görüş keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsindən AzərTAc-a bildirilib ki, görüş qurumun iki illiyi ilə əlaqədar reallaşdırılan layihə çərçivəsində baş tutub və mərkəzin fəxri üzvü olan Butros Butros Qaliyə təşkilatın təsis etdiyi Nizami Gəncəvi mükafatı təqdim olunub. Görüşdə gələn il Bakıda keçiriləcək III Qlobal Müştərək Cəmiyyətlər Forumu müzakirə olunub və Forumla əlaqədar sentyabrın 4-7-də Andorrada keçiriləcək toplantıya dair fikir mübadiləsi aparılıb.***

Butros Butros Qali Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin və Madrid Klubunun təşəbbüsü, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən toplantının əhəmiyyətini vurğulayıb. O bildirib ki, "Avropada etimadın bərpa olunması" mövzusunda müzakirələrin aparılması bu gün Avropada münaqişələr, gərgin siyasi proseslər və müsəlman dünyasında müşahidə edilən terror dalğası fonunda olduqca vacib addımlardan biridir.

Nizami Gəncəvi mükafatı daha əvvəl sabiq prezidentlər Bill Klinton, Vayra Vike-Frayberqa, Tarya Halonen, Süleyman Dəmirəl, Şahzadə Nur, Şahzadə Silvio və başqalarına təqdim olunub.



## Angeliki Ziaka: Azərbaycandakı tolerantlıq digər ölkələr üçün çox yaxşı nümunədir



Azərbaycandakı mövcud tolerantlıq digər ölkələr üçün çox yaxşı nümunədir. Bu sözləri AzərTAc-a müsahibəsində mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşünün iştirakçısı, Yunanıstanın Aristotel Universitetinin ilahiyyat üzrə professoru xanım Angeliki Ziaka deyib. Yunanıstanlı alim bildirib ki, Azərbaycanda tolerantlığın qədim tarixə malik olmasının əsas səbəbi ölkədə müxtəlif dinlərin və dini təriqətlərin təşəkkül tapmasıdır. Bunun nəticəsidir ki, bu gün Azərbaycan ərazisində fərqli dinlərə və dini təriqətlərə mənsub insanlar mehriban şəraitdə bir yerdə yaşayırlar. A.Ziaka vurğulayıb ki, 2014-cü il üzrə mübadilə görüşü tanınmış din və mədəniyyət xadimlərinin iştirakı ilə fikir və təcrübə mübadiləsinin aparılması, müvafiq problemlərin həlli üçün ümumi rəyə gəlinməsi baxımından əlverişli imkan oldu.

## "Litvalı deputatın Azərbaycanın işğal olunmuş ərazisinə səfəri bu ölkənin özündə də ciddi ictimai qınağa səbəb olub"

**"Litva parlamentinin bir deputatının Ermənistanla yanaşı Azərbaycanın işğal altında olan ərazilərinə də səfər etməsi bu ölkənin özündə də ciddi ictimai qınağa və tənqidə səbəb olub".** Bunu APA-ya açıqlamasında Azərbaycanın Litvadakı səfiri Həsən Məmmədov deyib. O qeyd edib ki, faktla bağlı Litva parlamentinin vitse-spikeri, parlamentin xarici əlaqələr komitəsinin sədri, xarici işlər nazirinin müavini ilə görüşlər keçirib: **"Bütün görüşlərdə Litva ilə Azərbaycan arasındakı dostluq münasibətləri xüsusi olaraq vurğulanıb. Litva hökumətinin və parlamentinin rəhbərləri, ziyalılar, ölkənin aparıcı media qurumları, millət vəkilləri bu səfəri qətiyyətlə pisləyirlər. Onların hər biri mənimlə də görüşlərdə Azərbaycanın Litva üçün önəmli tərəfdaş olduğunu vurğulayır, bu səfəri qınadıqlarını bildirirlər. Və xüsusi vurğulayırlar ki, bu səfər xanım Daliya Kuoditenin öz şəxsi maraqlarını Litva dövlətinin maraqlarından üstün tutmasının nəticəsidir".** H.Məmmədov qeyd edib ki, Litvanın 15 tanınmış ictimai təşkilatı bu səfərə etiraz olaraq birgə bəyanatla Litva prezidentinə müraciət etməyə hazırlaşır. Səfirin bildirdiyinə görə, erməni mediasında bu səfər və heyətlə bağlı yazılanlar "şoudan başqa bir şey" deyil: "Bu gün Litva parlamentinin vitse-spikeri bu səfərin necə baş tutması barədə yerli mətbuata da geniş açıqlama verib. O bildirib ki, bu ilin iyul ayında iki deputat Ermənistana səfərə getmək üçün parlamentin müvafiq komitəsinə icazə almaq barədə müraciət ediblər. Araşdırmadan sonra səfər proqramında həm də Azərbaycanın işğal edilmiş ərazilərinə getmək da daxil edildiyi və bunun parlament rəhbərliyindən gizlədildiyi üzə çıxıb. BUna görə də parlament xətti ilə səfərə icazə verilməyib. Deputatlara işğal altındakı ərazilərə səfər edilməsinin Azərbaycanın narahatlığına səbəb olduğu bildirilib. Parlament rəhbərliyinin apardığı danışıq nəticəsində deputatlardan biri səfərdən imtina edib. Xanım Daliya Kuodite isə öz şəxsi maraqlarını daha üstün tuta-

# Şeyxülislam QMİ-də gizli kameralar quraşdırılması məsələsinə aydınlıq gətirdi



***Şeyxülislam Allahşükür Paşazadənin Qafqaz Müsəlmanları İdarəsində (QMİ) gizli kameralar quraşdırılması məsələsinə rəsmi cavab verilib. QMİ-nin mətbuat xidmətindən SİA-ya daxil olan məlumatda deyilir ki, bəzi saytlarda İdarə ilə bağlı yayılan provokativ xarakterli yazılar QMİ-nin fəaliyyətinə kölgə salmaq məqsədi daşıyır: "Qafqaz Müsəlmanları İdarəsi və onun yerləşdiyi Təzəpir məscid kompleksi protokol məkanlar sırasına daxildir.***

QMİ sədri, Şeyxülislam dövlət tərəfindən qanuna uyğun olaraq mühafizə olunan şəxsdir, mühafizə xidməti ilə təmin edilmiş ictimai xadimdir. Bu baxımdan, İdarənin və onun rəhbərinin mühafizəsi, habelə Kompleksin təhlükəsizliyinin qorunması məqsədilə dini mərkəzin binası uzun illərdir ki, təhlükəsizlik kameraları ilə təchiz olunub. Həmçinin, məscidlər kütləvi tədbirlərin keçirildiyi məkan olduğundan bu yerlərdə təhlükəsizlik kameralarının quraşdırılması zəruridir". Qeyd olunur ki, İdarə daxilində hər hansı izləmə və ya gizli müşahidə ilə bağlı informasiyalar həqiqətə uyğun deyil.

# Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yeni tədris və yataqxana korpusunun təməli qoyulub



***Sentyabrın 2-də Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində Dövlət Sərhəd Xidmətinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulmuş Xüsusi Məktəbinin yeni tədris və yataqxana korpusunun təməlqoyma mərasimi keçirilib. AzərTAc xəbər verir ki, mərasimdə Dövlət Sərhəd Xidmətinin rəisi-Sərhəd Qoşunlarının Komandanı, general-polkovnik Elçin Quliyev çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin Dövlət Sərhəd Xidmətinə göstərdiyi diqqət və qayğıdan danışıb. O, bildirib ki, Xidmətin Xüsusi Məktəbinin miqyası getdikcə genişlənir.***



Məktəbin əvvəlki korpuslarında şagirdlərin qəbul edilməsi imkanı 140-150 nəfər idisə, yeni korpus istifadəyə verildikdən sonra artıq 400-dən çox şagirdi qəbul etmək imkanı yaranacaq. E.Quliyev qeyd edib ki, Azərbaycan gəncliyi vətənpərvər ruhda tərbiyə olunmalıdır və bunun üçün dövlət tərəfindən hər cür şərait yaradılır. O, Dövlət Sərhəd Xidmətinin reallaşdırdığı layihələrə, gördüyü işlərə daim dəstək verdiyinə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirib. Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov mərasimdə çıxış edərək bildirib ki, Fondun prezidenti Mehriban Əliyeva bir neçə dəfə bu müəssisədə olub, müvafiq tövsiyə və tapşırıqlarını verib. Bir neçə ildir ki, Heydər Əliyev Fondu ilə Dövlət Sərhəd Xidmətinin birgə əməkdaşlıq etdiyini deyən A.Ələkbərov bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə və yeni layihələrin reallaşdırılacağına əmin olduğunu bildirib. O, vurğulayıb ki, inşa olunan bu müəssisə bütün Azərbaycan gənclərinə xidmət edəcək. Tədbirdə digər çıxış edənlər bildiriblər ki, bu müəssisə Nazirlər Kabinetinin qərarı ilə 2011-ci ildə Dövlət Sərhəd Xidmətinin balansına verilib. Şagirdlərin daha yüksək səviyyədə təhsil almaları üçün Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə məktəbdə yenidənqurma və əsaslı təmir işləri həyata keçirilib və istifadəyə verilib.

Bildirilib ki, Azərbaycanda təhsilin inkişafına mühüm önəm verilir və bu sahədə daha böyük inkişafa nail olmaq dövlət siyasətinin prioritetlərindən biridir. Artıq gənclərimiz dünya standartlarına cavab verən təhsil müəssisələrində təhsil alırlar, hətta ən ucqar kəndlərdə belə Heydər Əliyev Fondunun dəstəyi ilə yeni təhsil ocaqları tikilir, əhalinin istifadəsinə verilir.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun və Dövlət Sərhəd Xidmətinin birgə layihəsi olan yeni korpusun yerləşdiyi ərazinin sahəsi 4,2 hektardır. Tikintinin ümumi sahəsi 10367,9 kvadratmetrdir. Dördmərtəbəli binada 18 sinif şagirdlərin ixtiyarına veriləcək. 420 şagird yerlik kimya, biologiya və fizika fənləri üzrə ixtisaslaşdırılmış siniflərdən təşkil olunmuş yeni tədris və yataqxana korpusu müasir tələblərə uyğun layihələndirilib. Binada Heydər Əliyev Muzeyi, 220 yerlik akt zalı, 25 metr uzunluğunda üzgüçülük hovuzu, 420 yerlik yataqxana, yeməkxana və trenajor zalları olacaq. Sonra məktəbin şagirdləri tərəfindən Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yeni tədris və yataqxana korpusunun təməli qoyuldu.

## Səyyar "ASAN xidmət" Şamaxı və Astarada

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, "ASAN xidmət" mərkəzlərinin təsis edilmədiyi regionlardakı əhaliyə xidmətlərin çatdırılması və mərkəzlərə gəlmədən vətəndaşların xidmətlərdən yararlanmalarının təmin edilməsi üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz edilmiş avtobuslar səyyar formada regionlarda əhaliyə xidmətlər göstərməkdə davam edir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AzərTAc-a bildiriblər ki, bu il sentyabrın 3-dən 15-dək Şamaxı, İsmayıllı və Ağsu rayonlarının 250.000 -dən artıq sakini səyyar "ASAN xidmət"dən Şamaxı rayonunda, sentyabrın 3-dən 13-dək isə Astara və Lənkəran rayonlarının 315.000 -dən çox sakini Astara rayonunda yararlana biləcəkdir. Səyyar şəkildə göstərilən xidmətlər Azərbaycan Respublikasının Ədliyyə, Daxili İşlər nazirlikləri, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Sosial Müdafiə Fondu və Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təqdim olunur. Bu xidmətlərə notariat fəaliyyəti, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, torpaq kadastrı məlumatları barədə arayışların verilməsi, əmək pensiyalarının təyin edilməsi, yaşayış evləri (mənzilləri) üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların (ilkin qeydiyyat istisna olmaqla) verilməsi, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi daxildir.

Cari ilin dekabr ayınadək səyyar "ASAN xidmət" vasitəsilə 35 məntəqədə 41 rayonun sakinlərinə müvafiq xidmətlərin həyata keçirilməsi nəzərdə tutulur. Səyyar "ASAN xidmət"in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.

## İtaliyanın Baş naziri Azərbaycana səfər edəcək

***İtaliyanın Baş naziri Matteo Renzi Azərbaycana səfər edəcək. Bu barədə o, keçirdiyi mətbuat konfransında məlumat verib.***

Sentyabrın ikinci yarısına planlaşdırılan səfər çərçivəsində Azərbaycan qazını İtaliya vasitəsilə Avropaya çatdıracaq "Trans-Adriatik" (TAP) boru kəməri layihəsi ilə bağlı məqamlar diqqət mərkəzində olacaq. Bununla yanaşı, iki ölkə arasında əlaqələrin son durumu, müxtəlif sahələrdə münasibətlərin inkişaf perspektivləri də görüşlərdə əsas müzakirə mövzusu olacaq. Maqsud Dadaşov

*.AzərTAc-ın xüsusi müxbiri Roma*

## "Milli Şura" ölüb, yerdən götürəni yoxdur



RƏFİQƏ

***Siyasi hadisələrlə bağlı deyilənlərdən belə təsəvvür yaranırdı ki, "Milli Şura"nın sədri Cəmil Həsənli ötən il baş tutmuş prezident seçkilərində rüsvayçı məğlubiyyətindən sonra siyasi arenanı birdəfəlik tərk edəcək və yenidən elmi fəaliyyətinə davam edəcək. Lakin bu hal baş vermədi. Belə ki, AXCP sədri Əli Kərimli və Müsavat partiyasının başqanı İsa Qəmbərin, eləcə də digərlərinin yalan, uydurma, şirniklədirici vədlərinə inanan Cəmil Həsənli hələ də radikal müxalifət düşərgəsində təmsil olunmaqla olan-qalan hörmət-izzətini də itirməkdə davam edir. Eyni zamanda Cəmil Həsənli nə qədər çalışsa da, "Milli Şura"nı dirçəldə, ona yeni nəfəs verə bilmir. Bir məşhur tamaşada rəhmətlik aktyorumuz Bəşir Səfəroğlu demişkən, ölünün də qıdığı gələr?! Axı sən, Əli Kərimli və s. qəbul etmək istəməsəniz də "Milli Şura" çoxdan o dünyalıq olub...***

Görünən həm də odur ki, 2013-cü il prezident seçkiləri ərəfəsində "ziyalı" qiyafəsinə bürünərək, "Milli Şura"nın "vahid namizədi" olmağı bacaran Cəmil Həsənlinin daha sonradan siyasi iddialarla çıxış etməyə başlaması radikal müxalifət cəbhəsində yeni və eyni zamanda kifayət qədər ciddi problemlərin əsasını qoydu.

### Cəmil Həsənli 2005-ci ildə mandatından imtina etməyərək deyirdi...

Bu arada Cəmil Həsənlidən söz düşmüşkən qeyd etmək istərdim ki, onunla bağlı ən maraqlı açıqlamanı bu ilin may ayında Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) lideri Etibar Məmmədov verib. Belə ki, "Bağırmaq Cəmil Həsənlinin adətidir. Hətta o qədər bağırıb ki, səsi də batıb. Artıq o, hec tamada kimi də işə yaramaz" deyən Etibar Məmmədovun sözlərinə görə, Cəmil Həsənli 2005-ci ildə AXCP-dən çıxıb Milli Məclisə gedəndə, deputat mandatdan imtina etməyəndə də qışqırıb, səs-küy salaraq bağırıb: "İllərdir bu dəstələrdən eyni məsuliyyətsiz ittihamlar eşidirik. Sosial şəbəkələrdə və sahibi olduqları qəzetlərində ağızlarına gələni yazırlar. Buna görə hec utanmırlar da. Bu isə onların bədbəxtçiliyidir".

Beləliklə, nə qədər qəribə olsa da, "Milli Şura"nın sədri Cəmil Həsənli xarici ölkələrin səfirləri və diplomatları ilə görüşərkən özünü ölkə müxalifətinin aparıcı siması kimi təqdim edir. Bu siyasi riyakarı heç vaxt ciddi siyasətçi hesab etməyən AXCP sədri Əli Kərimli və Müsavat başqanı İsa Qəmbər isə artıq Cəmil Həsənlidən, eyni zamanda "Milli Şura"dan birdəfəlik yaxa qurtarmağa çalışırlar. Görünən odur ki, artıq Cəmil Həsənli həmin o məşhur kimi istifadə müddətini yekunlaşdırıb. Artıq onun yeri ölü quruma çevrilmiş "Milli Şura" yox, həmin qurumun zibil qutusudur. Necə deyərlər, "Milli Şura" ölüb, götürəni də yoxdur. O ki qala qoca, ağlı tükənmiş Cəmi Həsənli ola...

# Ölkəmizin davamlı sosial-iqtisadi inkişafı düşünülmüş siyasətin məntiqi nəticəsidir




***YAP İsmayıllı rayon təşkilatı Əhalinin Sosial Müdafiə Mərkəzi ərazi ilk partiya təşkilatında "Ölkəmizin davamlı sosial- iqtisadi inkişafı, düşünülmüş, böyük siyasi zəkaya söykənən uzaqgörən siyasətin məntiqi nəticəsidir" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə YAP İsmayıllı rayon təşkilatının Əhalinin Sosial Müdafiəsi Mərkəzi, Maliyyə və Məşğulluq ərazi ilk partiya təşkilatlarında çalışan partiya üzvləri iştirak ediblər.***

Tədbiri giriş sözü ilə YAP İsmayıllı rayon təşkilatının sədri Əzizə Vahabova açaraq qeyd edib ki, danılmaz həqiqətdir ki, hər bir xalqın və dövlətin taleyində, xüsusən də onun inkişaf mərhələsinə qədəm qoyduğu bir zamanda böyük nüfuza malik liderə ehtiyac duyulur: "**Bu gün Ulu Öndər Heydər Əliyev irsinin layiqli davamçısı kimi Prezident İlham Əliyevin müəllifliyi ilə müasir Azərbaycan tarixinin şanlı səhifəsi yazılır. Son on ildə dövlətə rəhbərlik fəaliyyətinin bütün məqamları arasında qırılmaz bağlılığa, məntiqi ardıcıllığa nail olunmuş, Azərbaycanda dövlət idarəçiliyinin özünəməxsus mükəmməl sistemi formalaşdırılaraq, bu sistemin xalqın mənafeyinə uyğun intensiv fəaliyyəti təmin edilmişdir. Ötən illərdə uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq respublikamız dünyanın sürətli inkişaf yolunda irəliləyən, dünyada baş verən müharibələrdən, daxili çəkişmələrdən və ən əsası qlobal maliyyə-iqtisadi böhrandan uğurla çıxan, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərindən biri kimi tanınır. Artıq keçid dövrünü geridə qoyan respublikamızın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Bu mərhələdə də əsas məqsədlərdən biri uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdir**".

Rayon təşkilat sədri bildirib ki, ölkəmizin digər regionlarında olduğu kimi, İsmayıllı da bu uğurlu inkişafda irəliyə doğru addımlayır. Əhalinin sosial problemlərinin həlli istiqamətində mühüm işlər görülür. Ətraf mühitin qorunması məqsədilə "Təmiz şəhərdə və kənddə yaşa" devizi altında "Gələcək öz əlimizdədir" layihəsinin uğurla həyata keçirilməsi üçün əhalinin maarifləndirilməsi məqsədilə məqsədyönlü tədbirlər davam edir. Nitqinə davam edən Ə.Vahabova qeyd edib ki, hər bir İsmayıllı sakini dərk edir ki, rayonda görülən işlər, atılan bütün müsbət addımlar məhz Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin göstərdiyi hərtərəfli, böyük diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Bu böyük qayğıdan bəhrələnən sakinlər Azərbaycan dövlətinə daim sədaqətini, ölkə rəhbərinə məhəbbətini, minnətdarlıqlarını öz gündəlik əməli fəaliyyətləri və Onun ətrafında sıx birləşmələri ilə sübuta yetirirlər.

Tədbirdə YAP İsmayıllı rayon təşkilatı Əhalinin Sosial Müdafiəsi Mərkəzi ərazi ilk partiya təşkilatının sədri Fuad Məmmədəliyev, mərkəzin direktoru Çingiz Əliyev, maliyyə idarəsi ərazi ilk partiya təşkilatının sədri Rahim Həsənov, məşğulluq ərazi ilk partiya təşkilatının sədri Namiq Ağayev və başqaları çıxış edərək qeyd ediblər ki, son on il ərzində həyata keçirilmiş işlər Azərbaycanın perspektiv inkişafı ilə bağlı hər kəsdə müsbət rəy formalaşdırır. Bildirilib ki, dinamik inkişaf edən bir ölkənin vətəndaşları olaraq daima ölkə Prezidenti Cənab İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasəti bəyənir, Onun uzaqgörən, düşünülmüş, hər bir ölkə vətəndaşının milli mənafeyinə hesablanmış əməli fəaliyyəti ilə fəxr edirlər.

***ZÜMRÜD***

# "Milli mənəvi dəyərlərin unudulması cəmiyyəti narahat edir"



***Hüquqi və Demokratik İslahatlar Mərkəzi İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Unudulmaqda olan milli mənəvi dəyərlərin qorunması və təbliği" layihəsini başa çatdırıb. SİA-nın məlumatına görə, bununla bağlı keçirilən mətbuat konfransında layihənin rəhbəri, HDİM sədri İlham Əliyev keçirilən tədbirlərlə bağlı məlumat verib.***

Layihə çərçivəsində Bakı, Kürdəmir, Xaçmaz və Şirvan şəhərlərində dəyimir masaların keçirildiyini deyən İ.Əliyevin sözlərinə görə, məlum oldub ki, mövzu olduqca aktualdır və bu problem insanları narahat edir: "Keçirdiyimiz görüşlərdə, tədbirlərdə müxtəlif yaş qrupundan olan insanlar iştirak etdilər. Qoyulan mövzuların müzakirəsi zamanı aydın oldu ki, insanlarımız qloballaşma şəraitində bir sıra milli mənəvi dəyərlərimizin unudulub sıradan çıxmasından narahatdılar". "Qloballaşma müasir dünyanı tarixin heç bir mərhələsində olmayan vəziyyətə gətirib", deyən İ.Əliyevin fikrincə, tarixin heç bir dövründə informasiya bu qədər açıq, əlçatan, şəffaf, insanların ünsiyyət imkanları belə geniş olmayıb. Qloballaşma müəyyən problemlər yaradır. Problemlərdən ən mühümü milli-mənəvi dəyərlərin qorunması ilə bağlıdır: "Bu dəyərlərdən ən çox danışan toplumlardan biriyik. Milli-mənəvi dəyərlərdən ən mühümü ana dili və millətin ona münasibətidir. Millətin inkişafı onun təhsili ilə bağlıdır. Vətəndaşın təhsili daha güclü olmalıdır. Müasir dünyada inkişafın önündə o ölkələr gedir ki, onların güclü universitetləri var. Universitetləri zəif olan ölkə və regionlar inkişafın gerisində olurlar. Dəyərlərin qorunmasında əsas vəzifələrdən biri də KİV-in üzərinə düşür. Mediada ana dilinin qaydaları, üslubu qorunmalıdır. KİV xalqın tarixi kimliyi, milli-mənəvi dəyərlərlə bağlı ciddi, ardıcıl, sistemli konseptual əsaslı təbliğat aparmalıdır. Xalqın tarixinin ən şərəfli məqamları, şəxsiyyətləri təbliğ olunmalıdır. Tarix milli mənliyin ən vacib komponentidir. Tarixindən uzaq düşmüş, onu yaxşı bilməyən istənilən xalq inkişaf edə bilməz".

Sosial Hüquqların Monitorinq Qrupunun rəhbəri Azad İsgəndərli çıxışında dedi ki, milli dəyərlərin qorunmasında ziyalıların üzərinə böyük vəzifə düşür: "Ziyalılar mənsub olduğu xalqın bioqrafiyasını yaradan insanlardır. Bir xalqın tərcümeyi-halında yaradıcı ziyalılarının böyük rolu var. Onlar təbliğ olunmalı, tanıdılmalıdırlar. Ziyalılar millətin inkişafında böyük rol oynayırlar. Milli dəyərlərimizin qorunmasında din xadimlərinin də rolu var. Artıq ateizm dövrü geridə qalıb. İndi ruhani kadrlar Azərbaycanda hazırlanmalıdır. Amma indi ölkədə bu kadrları hazırlayan mütəxəssis heyəti də zəifdir. Başqa sözlə, din xadimləri ictimai-siyasi həyatdan uzaq olmalıdırlar. Heç bir halda siyasi proseslərə qatılmasınlar".



# "SƏS"İN DAŞI CƏMİL HƏSƏNLİNİN "BAŞINI YARIB"

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Uzun illərdir ki, Azərbaycanın media sahəsində yalnız haqq-ədalət uğrunda külüng vuran "Səs" qəzetinin və qəzetin balansında fəaliyyət göstərən "Səs" İnformasiya Agentliyinin (SİA), eləcə də eyniadlı "Səs" İnternet Televiziyasının (Səs" TV) daşı bu dəfə "Milli Şura"nın sədri Cəmil Həsənlinin "başını yarıb". Düzdür, bu günə qədər media orqanımızın daşı bir çoxlarının "başlarını yarıb". Hətta bu "başyarılmalardan" sonra həmin o bir çoxları başlarını götürüb ölkədən qaçmağa məcbur olublar. Məsələn, götürək Əli Kərimlinin "Azadlığ"ındakı Azər Əhmədovu, yenə də Əli Kərimlinin "Azadlığ"ındakı Qənimət Zahidi və s. Yəni beləri kifayət qədərdir.***

## Adam da bu qədər yekə yalan danışar?

Ancaq bu dəfə "Milli Şura"nın sədri Cəmil Həsənlinin nəyə görə bu qədər narahat olması məni də narahat etməyə bilməzdi. Daha dəqiqi narahat oldum ki, əcəba, "Səs"in daşı Cənil Həsənlinin daha harasına dəyib? Axı son zamanlar "narahat olmaq" məsələsi yaman dəbə minib. Avropada və Qərbdə Cəmil Həsənlilərin "baş yarılmalarından" "narahat olanlar" o qədərdir ki...Hətta ABŞ Dövlət Departamenti də bir sıra məsələlərdə dəbdə olan "narahatlıq" ifadəsi barədə bəyanatlar yayırlar. Bütün bunlar öz yerində.

Ancaq maraqlısı da budur ki, Cəmil Həsənli niyə birdənbirə bu qədər coşdu-daşdı ki, SİA-nın daşından bu qədər qorxmağa başladı. Görün nə deyir bu Həsənli. Soruşur ki, "yarım milyon nəfər üzvü olduğunu iddia edən YAP-ın mətbu orqanının İnternet saytını gündə cəmi 7 nəfər oxuyursa, burada hansı ictimai təsirdən danışmaq olar?" Ağsaqqal adamsan (baxmayaraq ki, saqqalın yoxdur və onun hər bir ağ tükünə birinci olaraq özün tüpürmüsən-R.), adam da bu qədər yekə yalan danışar? Ancaq qınanmalı da deyil. Bir halda ki, sən tüpürərək uzaqlaşdığın Əli Kərimlinin yanındasansa, onda səndən bütün ...-ləri gözləməyə dəyər.

## "Səs" qəzetində, SİA-nın manşetlərində, "SƏS" TV-nin kadrlarında görünmək üçün dəridən-qabıqdan çıxan da sən deyildinmi, ay Cəmil Həsənli?!

Yaxşı, ay Cəmil Həsənli, indi sənin etdiyin müxalifətçilik budurmu? Məgər bu ifadənin özü-özülüyündə bir cılızlıq, ucuz baxış tərzi açıq şəkildə görünmürmü? Və əgər SİA-nın, "SƏS"-in, "Səs" TV-nin yüksələn reytinqi səni bu qədər narahat edirsə, hansı səbəbdən əks sözlərinlə, dolayısı ilə bunları təsdiq edirsən? Görünən budur ki, Cəmil Həsənlinin başı doğrudan "yarılıb". Özü də əməlli-başlı, haaa!

Bir də ki, adama sual verərlər ki, deputat olduğun zamanlarda "Səs" qəzetinin keçirdiyi dəyirmi masalarda, SİA-nın manşetlərində, "SƏS" TV-nin kadrlarında görünmək üçün dəridən-qabıqdan çıxan da sən deyildinmi, ay Cəmil Həsənli?! İndi "başın yarılıb" deyə günahkar bizmi olduq?!

"Milli Şura" bütövlükdə bir neçə müxalifət partiyaları ilə ortaya uzağı 150-200 nəfər toplayırdısa, deməli, 600 mindən artıq üzvü olan Yeni Azərbaycan Partiyasını təmsil edənlərin böyük bir qismi məhz SİA-nın informasiyalarına baxır, "Səs" qəzetini də sevə-sevə oxuyurlar. Onda belə çıxır ki, beş-on nəfərlik "Milli Şura"dakıların da üçü-dördü səni mədh edən "Azalığ"ın üzünə baxıb, tullayır o tərəfə. Ona görə də zaman-zaman sənin başına belə ağır daşlar yağmağa başlayır, Cəmil Həsənli!

***P.S. Bu arada, 2013-cü ilin prezident seçkilərindən əvvəl sən və sənin kimi saqqalı tüpürcəklilər Azərbaycan əleyhinə iş apardığınız zaman, "Səs"in səsi ABŞ Dövlət Departamentindən, nüfuzlu "Der Şpeigel" dərgisindən gəlirdi. Və bunu da biz deyil, məhz "Azadlıq" yayırdı. Bəs buna nə deyirsən, ay Cəmil Həsənli?!***

# Erməni əsir Sarkisyan rejimini ifşa etdi

## İşğalçı ölkənin vətəndaşları səfalət içərisindədirlər

***Bu gün dünya iqtisadiyyatında baş verən proseslər Ermənistanda böyük narahatlıqla izlənməkdədir. Bunun işğalçı ölkəyə hansı təsirlər göstərəcəyi isə geniş müzakirə predmetinə çevrilməkdədir. Səbəbi isə Ermənistanın xarici yardımlardan asılı dövlət olması və kənardan kömək olmadan mövcudluğunu davam etdirməsinin mümkünsüzlüyüdür. Çünki Qərb ölkələrinin üzləşdiyi iqtisadi problemlər və yaşanan tənəzzül Ermənistana həmin dövlətlər tərəfindən edilən yardımların kəsilməsi deməkdir.***



Belə bir vəziyyətdə Ermənistanda əhalinin sosial durumu dözülməz bir həddə çatmaqdadır. Vəziyyətdən yeganə çıxış yolu kimi Ermənistan əhalisi əvvəlki qaydada ölkədən birdəfəlik miqrasiya edərək yaşamaq üçün başqa ölkələrə üz tutur. Bu, Ermənistan əhalisinin haqlı narazılığının daha da artmasına, etiraz aksiyalarının geniş vüsət almasına səbəb olur. Erməni ekspertləri mətbuata verdikləri açıqlamalarında qeyd edirlər ki, bu gün yaşanacaq hər hansı bir yeni qlobal maliyyə böhranının Ermənistana təsiri daha geniş miqyasda olacaq. Bu, həm Ermənistana xaricdən gələn maliyyə axınının dayanması, həm də iş dalınca başqa ölkələrə üz tutanların əmək fəaliyyətinə son qoyulması ilə nəticələnəcək.

### Erməni əsiri Serj Sarkisyan hakimiyyətdən gedəndən sonra ölkəsinə qayıdacağını bildirib

Bir neçə gün öncə Azərbaycan tərəfə keçmiş Ermənistan vətəndaşı Sarkis Ananyan Ermənistandakı iqtisadi vəziyyətdən qaçdığını deyərək bildirib ki, yaşadığı Noyamberyan rayonunun onlarla sakini imkansızlıq səbəbindən Azərbaycana üz tutmağa hazırdır. 53 yaşlı Ananyan Sarkis Norikoviç avqustun 26-sı Qazağın Kəmərli kəndi istiqamətindən könüllü olaraq Azərbaycan tərəfə keçib. Sarkisin sözlərinə görə, həyat yoldaşı 2008-ci ildə öldükdən sonra Noyamberyanda tək yaşayıb, xırda ticarətlə məşğul olub. Dolanışıq pis olduğundan 2 oğlundan biri Rusiyaya, digəri isə Yerevana çörək dalınca gedib. Lakin son vaxtlar maddi durumu daha da ağırlaşdığından Azərbaycana qaçmağa qərar verib: "**Dolanışıq çox pis idi, bunu Ermənistanda hamı bilir. Son vaxtlar vəziyyət daha dözülməz olduğu üçün bezmişdim. Dedim ki, keçirəm Azərbaycana. Qardaşım oğluna məsləhət edəndə dedi ki, özün bilərsən, keçirsən keç**".

Erməni əsiri onu da bildirib ki, ölkəsində əhalinin çoxu qocalardır: "Başqa ölkələrə gedənlərin də hamısı Sarkisyanın hakimiyyətdən getdikdən sonra ölkəyə qayıdacaqlarını dildirirlər. Aclıqdı deyə hərə bir yolla qaçıb çıxır ordan. Onu da deyim ki, Sarkisyan erməni xalqına bu 6-7 il ərzində olmazın zülmünü verdi. Cəlladdır. Kəndlərin sərhədə yaxın əraziləri, həmçinin, çöl yolları da minalanıb".

Sarkis Azərbaycanda saxlanma şəraitindən razı olduğunu, hətta girov düşənlərə ciddi diqqət yetirildiyini bildirib: "**Hazırda Müdafiə Nazirliyinin hospitalında müalicə olunuram. Hər şey göz qabağındadır, mənə yaxşı baxırlar. Ayağımda problem var idi, burda kömək elədilər mənə. İstəyərdim ki oğlanlarımla əlaqə saxlayım. Başqa yemək, içmək və siqaretlə təmin olunmuşam. Mən əvvəllər azərbaycanlılarla bir yerdə işləmişəm, ona görə az-maz Azərbaycan dilində bəzi sözləri bilirəm. Azərbaycanlı qonşularım da olub**".

Sarkis Ananyan, həmçinin hərbi xidmətdən danışarkən bildirib ki, heç kim Ermənistanda könüllü surətdə xidmətə yollanmır: "**Qarabağ bölgəsinə isə əsgərlər püşkatma yolu ilə xidmətə göndərilirlər. Çünki hərbi hissələrdə vəziyyət olduqca ağırdır. Əsgərlər acından ölür, su tapılmır, çoxusunu bit basıb**". Sarkis Ananyan onu da bildirib ki, Ermənistana yalnız iqtisadi vəziyyətin yaxşılaşacağı təqdirdə qayıdacağını deyir.

### Erməni ekspertlər Köçəryanın müsahibəsinə münasibət bildirərək "kor-kora kor deməsə, bağrı çatlar" deyiblər

Erməni ekspertlər son günlər Ermənistanın sabiq prezidenti Robert Köçəryanın Rusiyada dərc olunan "Nuhun Gəmisi" qəzetinə verdiyi müsahibəsindən hiddətlənərək bildiriblər ki, "kor-kora kor deməsə, bağrı çatlar". Ekspertlər onu da qeyd ediblər ki, Koçaryan Serj Sarkisyana Ermənistan iqtisadiyyatının bu ağır durumdan çıxma yolunu göstərərkən niyə özünün hakimiyyətdə olduğu zamanlar buna əməl etmirdi: "Koçaryan 10 illik prezidentliyi dövründə Ermənistan iqtisadiyyatının hazırkı vəziyyətə düşməsinin əsasını qoyub. Məhz onun hakimiyyətdə olduğu zaman tutduğu işğalçı mövqe Ermənistanın bütün regional layihələrdən təcrid olunmasına gətirib çıxartdı. Serj Sarkisyan da onun yolunu davam etdirdiyi üçün Ermənistanda iqtisadi və sosial vəziyyət ilbəil ağırlaşır. Yerli əhali də sürətlə Ermənistanı tərk edir".

Göründüyü kimi, artıq həm erməni xalqı, həm də Serj Sarkisyan artıq yuxudan ayılıb ətraflarına baxmalı, boş-boş nağıllar danışıb özlərini aldatmamalıdır. Ermənistan artıq dağılıb gedir, yaxşı olardı ki, Serj Sarkisyan Cənubi Qafqazda gələcək sülhə birbaşa zərbə vuran təxribatçı halları davam etdirməkdənsə, erməni xalqını müharibənin girovunda saxlamaqdansa, son illər ölkəsini kütləvi şəkildə tərk edən, iş və çörək axtarışında bütün dünyaya səpələnmiş həmvətənlərinin qeydinə qalsın. Sonda Ermənistan xalqına və Serj Sarkisyana Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda Ağdama səfəri zamanı verdiyi bəyanatı xatırlatmaq istəyirəm: "**Bu gün Ermənistanın faşist rəhbərliyi, hərbi xunta öz ölkəsini uçuruma aparır. Onlar bizim torpaqlarımızı işğal ediblər, eyni zamanda, bütün Ermənistanı işğal ediblər. Erməni xalqı kriminal, korrupsioner rəhbərlikdən öz canını qurtarmalıdır. Əks təqdirdə Ermənistanı böyük fəlakətlər gözləyir. Əgər Ermənistan faşist dövləti öz çirkin əməllərindən əl çəkməsə, erməni dövlətinin mövcudluğu sual altına düşə bilər**".

***A.SƏMƏDOVA***

## Türkiyə hökuməti işğal altındakı Azərbaycan torpaqlarının azad olunması üçün səylərini davam etdirəcək

***Baş nazir Əhməd Davudoğlu Türkiyə Böyük Millət Məclisində yeni hökumətin fəaliyyət proqramı ilə bağlı çıxış edib. Baş nazir hökumətin xarici siyasət proqramında bir sıra məsələlərlə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələnin də əksini tapdığını bildirib.***



Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan Dağlıq Qarabağ regionu və ona bitişik rayonların azad edilməsi və Ermənistan ilə Azərbaycan arasında sülhün yaranması istiqamətində səylərin göstərilməsi AKP hökumətinin xarici siyasətində əsas istiqamət kimi göstərilib.

## Erməni lobbisinin təzyiqləri altında daha bir anti-Azərbaycan qətnaməsi

*"Bütün dünya, eləcə də ABŞ Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır və kağız parçaları bu mövqeyi dəyişmək iqtidarında deyil"*



Azərbaycanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı haqlı, ədalətli, qətiyyətli mövqeyi dəyişməz olaraq qalır. Ölkəmiz münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında ərazi bütövlüyümüzün tam bərpası çərçivəsində ədalətli həllinə səy göstərir. Lakin Azərbaycanın xoşməramlı səylərinə, rəsmi Yerevanı diplomatik vasitələrlə işğalçılıq siyasətindən çəkindirməyə yönələn addımlara baxmayaraq, münaqişə hələ də həll olunmamış qalır. 20 il atəşkəs rejimində yaşasaq da Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə hələ də nail ola bilməyib. Bu müddət ərizində dəfələrlə atəşkəs rejimi pozulub. Bu, Ermənistanın işğalçılıq siyasətindən geri çəkilmək istəməməsi, müxtəlif bəhanələrlə danışıqlar prosesini pozmaq niyyətində irəli gələn amildir. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayır, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət vermir. Bildiyimiz kimi, BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul edib. Bununla yanaşı, bir çox beynəlxalq təşkilatlar, dünya ölkələri Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyiblər və işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar. AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası səviyyəsində Ermənistanın işğalçılıq siyasətinə kəskin mənfi münasibət bildirilib. Bir çox beynəlxalq təşkilatlar da, dünya ölkələri də Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyib, onu işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar. Bütün bu addımlara baxmayaraq Ermənistan işğalçılıq, anti-Azərbaycan siyasətini davam etdirir.

Məlumdur ki, ABŞ-ın Kaliforniya ştatındakı erməni lobbisinin güclü təzyiqləri altında anti-Azərbaycan xarakterli AJR 32 saylı qətnamə artıq bir neçə müddətdir ki, Kaliforniya Senatının gündəliyində idi. Kaliforniya ştatı Senatının Dağlıq Qarabağa dair qərəzli qətnaməsi ilə bağlı Azərbaycanın Los-Ancelesdəki baş konsulluğu bəyanat yayıb. Bəyanatda deyilir ki, gündəliyə gətirilən andan Azərbaycanın Los-Ancelesdəki baş konsulluğu tərəfindən bütün senatorlara dəfələrlə məktub göndərilib, onlarla çoxsaylı görüşlər keçirilib, qətnamənin tam qərəzli və ABŞ-ın xarici siyasətinə zidd olduğu, o cümlədən etnik təmizləməyə, işğala haqq qazandırdığı diqqətə çatdırılıb. Bundan başqa, Kaliforniyadakı Azərbaycan icması səfərbər olub, Senata müxtəlif vasitələrlə öz etirazlarını çatdırıb. Bəyanatda deyilir: "**Nəticədə, 1 milyon erməninin yaşadığı Kaliforniyada erməni lobbisinin dəridən-qabıqdan çıxmasına, ştatın Qanunverici Orqanının iki erməni deputatının bütün səylərinə, ermənilər tərəfindən hədə-qorxu, şantaj və digər vasitələrlə senatorlara göstərilən təzyiqlərə baxmayaraq, avqustun 27-də keçirilən səsvermədə 40 senatordan 17-si qətnamənin lehinə səs verməkdən imtina edib. Eyni zamanda, erməni lobbisindən öz seçki kampaniyaları üçün daim külli miqdarda maliyyə dəstəyi alan, beləliklə, onlardan tam asılı vəziyyətdə olan senatorlar lobbini razı salmaq üçün bu qətnaməyə səs veriblər**".

Bu əsl siyasi korrupsiya kimi qiymətləndirilib. Buna başqa ad vermək belə mümkün deyil. Bəyanatda o da diqqətə çəkilir ki, bu, həmçinin ABŞ demokratiyasının və siyasi sisteminin qüsurlu olmasının bariz göstəricisidir:"Hansısa etnik lobbi razı qalsın deyə, ABŞ-ın rəsmi mövqeyinə və milli maraqlarına zidd olan belə qətnamənin qəbul olunması göstərir ki, Birləşmiş Ştatların siyasi sisteminin təcili şəkildə ciddi islahatlara ehtiyacı var".

Bir fakt da qeyd edilməlidir ki, bu qətnamə Kaliforniya Qanunvericilik Orqanında Dağlıq Qarabağla bağlı qəbul edilmiş ilk qətnamə deyil. 1993, 1997 və 1999-cu illərdə də oxşar məzmunlu qətnamələr qəbul edilib. Ancaq nə o qətnamələrin, nə də bu qətnamənin hər hansı hüquqi-siyasi önəmi yoxdur. Bəyanatda bunların yalnız deklorativ xarakterli kağız parçaları olduğu vurğulanır:"**Bütün dünya, eləcə də ABŞ Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır və belə kağız parçaları bu mövqeyi dəyişmək iqtidarında deyil**".

***NƏZAKƏT***

# Azərbaycan Konqreslər Bürosu "Açıq qapılar" tədbirinin prioritetlərini açıqlayıb

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə fəaliyyət göstərən Azərbaycan Konqreslər Bürosu 2014-cü il üçün fəaliyyət planındakı hədəflər çərçivəsində nəzərdə tutulan "Açıq qapılar" tədbiri üzrə hazırlıqlarını başa çatdırıb. Xatırladaq ki, büronun ilk dəfə keçirəcəyi tədbir 4 sentyabr tarixində "Fairmont Baku" mehmanxanasında baş tutacaq və tədbirə Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri cənab Əbülfəs Qarayev sədrlik edəcək.***

Tədbir büroya üzv olan mehmanxana və turizm fəaliyyəti ilə məşğul olan şirkətləri, Azərbaycanın biznes turizmi sahəsində çalışan müxtəlif şirkət və firmaları bir araya gətirəcək. Tədbirin əsas məqsədi iştirakçıları Azərbaycan Konqreslər bürosunun işi, məqsəd və hədəfləri ilə daha yaxından tanış etmək, Büronun təsisindən bu vaxta qədər gördüyü işlər və gələcək planlarını təqdim etmək, büronun üzvlərini tanıtmaqdır. Bu da öz növbəsində, büronun fəaliyyəti barədə daha geniş kütlələrin məlumatlandırılmasına imkan verəcək.

Tədbirdə, həmçinin büroya üzv olmaq istəyən şirkət və mehmanxanalara, eləcə də biznes turizmi bazarının digər iştirakçılarına büroya üzvlüyün açacağı imkanlar təqdim olunacaq. Büronun üzvlərindən "Azərbaycan Hava Yolları" QSC-nin vitse-prezidenti cənab Arif Məmmədov və "JW Marriott Hotel Absheron Baku" mehmanxanasının baş direktoru cənab Martin Kleinmann tədbirdə çıxış edərək büro ilə əməkdaşlıqları barədə öz təcrübələrini bölüşəcəklər.

Tədbir iştirakçıları arasında Almaniyanın MICE (biznes turizmi) bazarının təmsilçiləri də olacaq. Büronun təşkil edəcəyi tanışlıq səfəri çərçivəsində ölkəmizi ziyarət edəcək alman mütəxəssislər Azərbaycanda biznes turizmi sahəsinin inkişaf potensialı üzrə görüş və təkliflərini paylaşacaqlar. Qeyd edək ki, 2013-cü ildə Mədəniyyət və Turizm Nazirliyinin nəzdində ölkəmizdə turizmin inkişafı üzrə strategiyanın həyata keçirilməsi məqsədi ilə yaradılan büronun fəaliyyət sahəsinə Azərbaycana irimiqyaslı beynəlxalq tədbirlərin cəlb edilməsi, Azərbaycanı beynəlxalq tədbirlərin keçirilməsi üçün inkişaf edən məkan kimi təbliğ və təqdim etmək, beynəlxalq tədbirlərdə iştirak və s. bu kimi biznes əhəmiyyətli işlər daxildir.

Ölkənin beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsi iqtisadiyyatın hər bir sahəsinə müsbət təsir edəcək. Belə ki, biznes turizmi sahəsinin inkişafı nəqliyyat sahəsinin gəlirlərinin artmasına (transfer xidmət təminatçıları, ictimai nəqliyyat və taksi, avtomobil icarəsi), mədəniyyət, turizm və tədbir məkanlarının tanınmasına (konqres, sərgi və konfrans mərkəzləri, mehmanxanalar), tədbir təşkilatçısı firmaları, MICE agentlikləri, səyahət agentlikləri və əyləncə şirkətlərinin, habelə yüksək texnologiya sahələri, IT təchizatçılar, mobil telekommunikasiya şirkətləri və konfrans təchizatçılarının daha da inkişaf etməsi və daha çox gəlir əldə etməsinə imkan verəcək.

Büronun əsas hədəflərindən biri də yüksək peşəkarlığı və rəqabətə davamlılığı ilə seçilən Azərbaycan Görüşlər İttifaqı (Azerbaijan Meeting Alliance) yaratmaq və inkişaf etdirməkdir. Belə bir ittifaq ölkənin MICE bazarında işləyən təşkilat və müəssisələri bir araya gətirərək onların inkişafına və regional oyunçulara çevrilməsinə yardımçı olacaq.

Hazırda Büro dünyanın müxtəlif ölkələri ilə işləyir, hədəf bazarlarla yaxın əlaqə qurur, bazar iştirakçılarını ölkəyə cəlb etmək və bütün maraqlı MICE bazarı iştirakçıları ilə əməkdaşlıq etmək üçün beynəlxalq konqres və seminarlarda iştirak edir ki, bunların arasında "EIBTM" və "IMEX" beynəlxalq işgüzar turizm sərgiləri, M&I Avropa Forumlarını və s. nüfuzlu tədbirləri qeyd etmək olar.

Büro, eyni zamanda, üzvləri üçün seminar və treninqlər təşkil edir, hədəf bazarları - Rusiya və Almaniyadan olan biznes turizmi bazarının iştirakçıları üçün tanışlıq səfərləri təşkil edir. Büronun üzvləri sırasında ölkənin biznes turizmində aparıcı mövqe tutan 14 şirkət var.

## II Bakı Beynəlxalq İdman Filmləri Festivalı - FİCTS keçiriləcək

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsinin təşkilatçılığı ilə 17-22 noyabr 2014-cü il tarixində Nizami Kino Mərkəzində II Bakı Beynəlxalq İdman Filmləri Festivalı (BBİFF) keçiriləcək.***



Festivalın məqsədi bütün idman növlərinə həsr olunan, idmanın inkişafına təkan verə biləcək filmləri təbliğ etmək, ən yaxşı filmlərin müəlliflərini həvəsləndirməkdir. Festival 2015-ci ildə Bakıda keçiriləcək I Avropa Olimpiya Oyunları ərəfəsində ölkəmizin idman potensialına diqqəti cəlb etməyi də qarşısına məqsəd qoyub.

Festivala təqdim olunan filmlər kinematoqrafçılar və idman ekspertlərindən ibarət 7 nəfərlik beynəlxalq münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Münsiflər heyəti hər 5 kateqoriya üzrə (İdman və dünya, İdman və şəxsiyyət, Bədii film, TV filmləri və proqramları, Milli film) üç filmi müəyyən edəcək. Qaliblərə diplom, priz və pul mükafatları nəzərdə tutulub. Festivalın ən yaxşı filminə isə QRAN PRİ veriləcək.

II BBİFF müsabiqə proqramları ilə yanaşı seminarlar, film müəllifləri ilə idman mütəxəssisləri və KİV təmsilçiləri arasında müzakirələr keçirəcək. Filmləri festivalın www.bisff.az saytı vasitəsilə təqdim etmək mümkündür. II BBİFF mənzil qərargahı Milan şəhərində yerləşən İdman Kino və Televiziya Filmləri Beynəlxalq Federasiyasının (FİCTS) üzvüdür. Festivalla bağlı daha ətraflı məlumatı www.bisff.az veb-saytından əldə etmək olar.

## Hindistanda və Türkiyədə Azərbaycan rəqsləri nümayiş olunacaq



***Rəqqasə Fatimə Fətəliyeva "Qafqaz bloku" adlı yeni rəqs hazırlayıb. Bu haqda rəqqasə özü deyib: "Nəhayət, bir neçə müddətdir ki, üzərində çalışdığım "Qafqaz rəqsi"ni təqdim etdim. Onu iki qardaşla bərabər oynamışam. Düşünürəm ki, fərqli bir nümunədir. Çünki indiyə kimi bu rəqsi Azərbaycanda təqdim edən olmamışdı. Bunu ilk dəfə mən etdim. Quruluş Fərhad Vəliyevə məxsusdur".***

Fatimə onu da əlavə edib ki, noyabrda Hindistan və Türkiyədə festivallarda olacaq: "Payızda yaradıcılıq işlərimlə bağlı planlarım çoxdur. Yeni rəqs nümunələri hazırlamışam. Belə ki, noyabrın ilk həftəsində Hindistanda, ikinci həftəsində isə Türkiyənin Mərsin şəhərində keçirilən festivallara dəvət almışam. Hindistanda baş tutacaq tədbirdə "Səma" rəqs qrupu ilə birgə səhnəyə çıxacam".

## Azərbaycan XXVII Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasında təmsil olunacaq

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə ölkəmiz 3-7 sentyabr 2014-cü il tarixində XXVII Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasında təmsil olunacaq. 1987-ci ildən etibarən hər il keçirilən Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkası dünyanın nüfuzlu sərgilərindən biri hesab olunur. Hər il sərgidə çox sayda yerli və xarici nəşriyyat-poliqrafiya müəssisələri, kitab sənəti ilə məşğul olan təşkilatlar təmsil olunur.***

Moskva sərgisində iştirak milli mədəniyyətimizin, sürətlə inkişaf edən nəşriyyat-poliqrafiya sahəsinin, kitab sənətinin təbliğ olunması, ümumən respublikamızda aparılan genişmiqyaslı quruculuq işlərinin və əldə olunan uğurların dünyaya çatdırılması üçün mühüm vasitədir. Milli stendə "Bakı-2015" birinci Avropa Oyunları ilə bağlı reklam vasitələri yerləşdiriləcək, maraqlananlara ölkəmizin ev sahibliyini edəcəyi beynəlxalq tədbir haqqında dolğun informasiyaların əks etdirildiyi broşür və bukletlər paylanılacaq.



Sərgi çərçivəsində X Beynəlxalq "Kitab sənəti" müsabiqəsində qalib gəlmiş kitabların mükafatlandırma mərasimi keçiriləcək.

## Lerik rayonunda Uzunömürlülərin Yaradıcılıq Festivalı keçiriləcək

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə cari ilin sentyabr ayının 8-də Lerik rayonunda Uzunömürlülərin Yaradıcılıq Festivalı keçiriləcəkdir. Müstəqil Azərbaycanın tarixində ilk dəfə keçiriləcək bu festival respublikamızın uzunömürlülər diyarı kimi təbliğ edilməsi, ahıl insanların yaradıcılıq potensialının üzə çıxarılması və stimullaşdırılması, regionlararası mədəniyyət mübadiləsinin gücləndirilməsi məqsədini daşıyır.***

Lerik rayonunun uzunömürlü insanların yaşadığı bölgələrdən biri kimi məşhur olması, burada respublikada yeganə olan "Uzunömürlülər" Muzeyinin fəaliyyət göstərməsi, festivalın regionun turizm potensialının gücləndirilməsi istiqamətində əhəmiyyətini nəzərə alaraq tədbirin Lerikdə keçirilməsi planlaşdırılmışdır. Bir sıra janrlar - mahnı və muğam ifaçılığı, aşıq musiqisi, rəqs, sənətkarlıq, təsviri və tətbiqi sənət üzrə keçiriləcək bu festivalda kitab, foto və rəsm sərgilərinin təşkili, Azərbaycanın müxtəlif bölgələrindən - Lənkəran şəhər, Balakən, İsmayıllı, Lerik, Astara, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar və Salyan rayonlarından yaşı 70-dən yuxarı olan yaradıcı insanların, uzunömürlülərdən ibarət "Rəfti", "Nənələr" folklor kollektivlərinin, həmçinin respublikanın xalq artistləri Canəli Əkbərov, Teymur Mustafayev, Natəvan Şeyxova, Valeh Kərimov, əməkdar artistlər Zakir Əliyev, Azad Şükürov, Rafiq Seyidzadə və başqalarının iştirakı nəzərdə tutulmuşdur.

Festivalda "Salnamə" Kinostudiyasının istehsalı olan "Əsrə sığmayan həyat" filmi nümayiş etdiriləcək, Azərbaycan mətbəxinin təbliği məqsədilə Milli Kulinariya Mərkəzi ilə birgə plov festivalı təşkil ediləcəkdir.

Hazırladı: ZÜMRÜD

# Leyla Yunusun sərsəm bəyanatı

*Və ya o, "müdafiə komitələrinin" işlərindən niyə narazı qalıb?*

**Bu günlərdə Sülh və Demokratiya İnstitutunun həbsə olan direktoru Leyla Yunus növbəti dəfə sərsəm bəyanat və çağırış etməklə, əslində Azərbaycan dövlətinə qarşı nə qədər düşmən mövqedə dayandığını kifayət qədər sübuta yetirmiş olub. Belə ki, həmin sərsəm bəyanata diqqət yetirməmişdən öncə vurğulayaq ki, bu çağırışın arxasında eyni zamanda onun və ərinin, həmçinin, digər həbs olunanların "hüquqlarını müdafiə komitələrinin" tamamilə başqa motivdə fəaliyyət göstərmələri dayanıb. Leyla Yunus, "müdafiə komitələrinin" köhnə strategiyasının işə yaramadığını bəyan edib və mərkəzləşmiş "vicdan məhbuslarının müqavimət hərəkatı" yaradılması vacibliyindən dəm vurub.**




Beləliklə, artıq Leyla Yunus da anlamağa başlayıb ki, ayrı-ayrılıqda fəaliyyət göstərən "müdafiə komitələri" əslində, xarici təşkilatlardan qrant almaq üçün yaradılıblar və onların həqiqətən də həbs edilənlərin müdafiə olunmaları ilə bağlı fəaliyyətləri qeyri-səmimidir. Xatırladaq ki, "Milli Şura" və oraya daxil olan AXCP, o cümlədən, ayrı-ayrı fərdlər bir, Müsavat, KXCP, VİP, "Ümid", ADP kimi partiyalar isə digər "müdafiə komitəsində" fəaliyyət göstərərək, qrant almaq uğrunda savaş aparırlar.

## Leyla Yunus daha bir "yenilik" edib

Leyla Yunusun bəyanatına gəldikdə isə, o, həmin bəyanatdakı çağırışında onu da bildirib ki, həmin qurum guya Azərbaycanda repressiyaların gücləndiyini iddia etməklə yanaşı, AŞ Baş katibinə, AŞPA sədrinə Azərbaycanda "repressiyaların dinamikasını göstərməklə" Azərbaycanın AŞ Nazirlər Komitəsinə rəhbərliyinin "yolverilməz olması haqda" müraciətlər hazırlanmalı, deputatlar arasında paylanmalıdır.

Göründüyü kimi, bir daha sübut olunub ki, Leyla Yunus həqiqətən də Vətənə xəyanət etməkdə ittiham olunarkən onun haqqında ictimai rəydə doğru fikir formalaşıb. Daha dəqiq desək, Leyla Yunus bununla daha bir "yenilik" edib. Çünki bu günə qədər "siyasi məhbus" donu geyindirilən heç bir kəs ölkənin imicinə toxunacaq belə bir mənfur addım atmayıb. Məhz bu "yenilik" də məhz Leyla Yunus tərəfindən oldu. Bu zaman istər-istəməz belə bir reallıq canlanır - axı erməni başqa cür necə olmalıdır?

## O, yüzlərlə azərbaycanlıların qanına susamış Zori Balayandan, Avo Melkonyandan da betər ermənidir

Yəni məsələ yalnız o deyil ki, mütləq şəkildə etnik baxımdan erməni olmalısan ki, Azərbaycana qarşı bu qədər kin və nifrət bəsləyəsən. Çünki bu günlərdə Azərbaycana qaçmış elə ermənilər də var ki, onlar bu ölkənin vətəndaşı olmaq üçün müraciətlər edir, Ermənistanın Sarkisyan rejimindən can qurtarmağa çalışırlar. Ancaq Leyla Yunusun erməniçiliyi tamamilə başqadır. O, yüzlərlə azərbaycanlıların qanına susamış Zori Balayandan, Avo Melkonyandan da betər ermənidir və bunu sözügedən bəyanatı, çağırışı ilə isbata yetirmiş oldu! Əgər bu gün rəsmi Yerevan, dünyada fəaliyyət göstərən erməni lobbisi ciddi-cəhdlə Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə rəhbərlik etməsinə mane olmağa çalışırsa, bu istiqamətdə fəaliyyətini göstərirsə, və Leyla Yunus da onlarla eyni fikiri bölüşürsə, deməк hər şey gün kimi aydındır.

## Bundan sonra Leyla və Arif Yunusları malalamamalıdırlar!

Həm də o aydındır ki, bu gün hətta Leyla Yunusun müdafiəsinə qatılan tərəflər bu işlərində səmimi olsalar belə, əgər özlərində bir balaca mənəviyyat, vətəndaşlıq hissi, ləyaqət hiss edirlərsə, onda həmin fəaliyyətlərini dayandırmağa məhkumdurlar. Çünki bundan sonra Leyla və Arif Yunusları, Rauf Mirqədirovu, həmçinin, digərlərini təmizə çıxararaq, malalamamalıdırlar! Onlar ən azından düşünməlidirlər ki, hətta Leyla Yunusdan da hakimiyyətə qarşı sərt mövqeyi ilə seçilən müxalifətçilər həbsdə olublar. Amma onların heç biri Azərbaycanın beynəlxalq nüfuzlu qurumlarda təmsil olmasına qarşı çıxmayıblar.

Nəticədə bir amil, özü də şəksiz amil bir daha sübuta yetirilib - Leyla Yunus hətta həbsxanada olsa belə, erməniçiliyindən əl çəkmək fikrində deyil. Görünür, qarşıda daha qaranlıq məsələlərin açılışına hazır olmalıyıq.

**Rövşən NURƏDDİNOĞLU**

## Müxalifət partiyaları dağılmağa məhkumdur

**Müxalifət yenidən fəallıq göstərib bələdiyyə seçkiləri ərəfəsi yeni bir blok yaratmağa cəhdlər göstərir. Söz yox ki, bu cür fəallıq reallığı əks etdirmir. Sadəcə ictimaiyyətin deyil, mətbuatın diqqətini özlərinə cəlb etməyə yönəlib. Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin rəhbəri Rufiz Qonaqov qəzetmizə verdiyi açıqlamasında bildirdi ki, 20 ildən artıq ölkədə keçirilən seçkilərdə iştirak edən, ancaq məğlub olan müxalifətin siyasi ömrü başa catır: "Bu dəfə də qarşıdan gələn seçkilərlə bağlı müxalifət təmsilçilərinin yenidən özlərini reklam etmələri boş bir məsələdir. Çünki müxalifətin xalq tərəfindən siyasi dəstəyi yoxdur. Bu da müxalifətin seçkilərdə hər hansı bir nəticə əldə edə bilməyəcəyindən xəbər verir".**

**"Hər dəfə müxalifət bloklar yaratdıqdan sonra həmin qurumlar daxilində çəkişmələr və bir-birini söyüb - təhqir etmek problemi də yaradır. İsa Qəmbərin rəhbərlik etdiyi "Milli-Strateji Düşüncə Mərkəzi" də eyni vəziyyətin hökm sürəcəyini demək olarmı"** sualını cavablandıran R.Qonaqov bildirdi ki, "Milli-Strateji Düşüncə Mərkəzi"ndə də daxili çəkişmələr və qarşıdurmalar baş verəcək. Çox qəribə bir şeydir ki, bu gün müxalifət təmsilçiləri düşüncə mərkəzi yaradır. Amma bir araya yığışaraq nəyi düşünəcəklərini özləri də bilmirlər. Çünki düşünülməsi bir şey qalmayıb. Ümumiyyətlə, müxalifət təmsilçilərinin nə isə yaratmaları onların düşərgəsində heç nəyi dəyişmək qüdrətində deyil.

**GÜLYANƏ**

## "Ümid" partiyası iflasa doğru

*Hafiz Hacıyev: "İqbal Ağazadəyə millət vəkili titulunu yaraşdırmıram"*

**Son vaxtlar "Ümid" partiyasının sədri İqbal Ağazadə rəhbərlik etdiyi qurumda istefa dalğasının qarşısını almaq üçün bütün müavinlərini istefaya göndərib. Partiyadan verilən məlumata görə, bunun səbəbi partiya sədrinin siyasi xəttindəki bəzi nüanslardır. Partiya daxilində yaranmış bu vəziyyət qarşıdan gələn bələdiyyə seçkilərində "Ümid"in iştirak edəcəyi sual altındadır. Mənbənin dediyinə görə, hələ prezident seçkiləri ərəfəsində və ondan sonra partiya funksionerləri ilə sədr arasında qurumun idarə edilməsi, siyasi xətlə bağlı ciddi fikir ayrılıqları yaranmışdı. Mənbənin bildirdiyinə görə, İqbal Ağazadə müavinləri ilə yaşanan və qarşıdurmanı pik həddinə çatdırıbdır.**




Məsələyə münasibət bildirən Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev İqbal Ağazadəni xarici kəşfiyyata işləyən agent adlandırıb: "Hələ 2003-cü ilin oktyabr hadisələrində İqbal Ağazadə, İsa Qəmbər və bu kimi satqınlar qrupuna aid olan daha bir neçə nəfər həbs edilmişdilər. Lakin həmin həbsdən sonra, müəyyən xarici təzyiqlər vasitəsilə o, həbsdən azad edildi". H.Hacıyev "Ümid" partiyasının sədri İqbal Ağazadənin xarici kəşfiyyata işləyən agent olması barədə mətbuatda gedən informasiyalara münasibətini bildirərkən deyib ki, tökülən qanlarda onun günahı çoxdur: **"Hansı ki, həmin zamanlar İqbal Ağazadə İsa Qəmbərin dəstəkçisi qismində "Azadlıq" meydanının tribunasına çıxaraq, başıpozuq kütlələri dövlət çevrilişinə çağırırdı. Onu da unutmaq olmaz ki, məhz İqbal Ağazadənin səyi nəticəsində həmin vaxtlar qan töküldü, ölüm-itim halları yaşandı. Təbii ki, bu kimi faktorlar Azərbaycanda maraqları olan xarici dairələrə sərf edirdi. Ona görə də tam əminliklə deyirəm ki, İqbal Ağazadə hətta anadan olandan üzü bu yana xarici kəşfiyyat orqanına işləyir".**

H.Hacıyev "Ümid" sədrinin maddi imkanlarının da haradan qaynaqlanması barədə sual edərək bildirdi ki, bu gün də, bundan əvvəlki illərdə də onu maliyyələşdirən xarici qüvvələr olub: "Gəlin məsələyə bir başqa kontekstdən yanaşaq. Bu gün İqbal Ağazadədə olan maddi imkan, maliyyə vəsaiti haradandır? O, bu kimi vəsaitləri kimlərdən alıb, haraya xərcləyir? Ümumiyyətlə, bu adam yaşadığı lüks mülkünü, əmlakını hansı vasitələrlə əldə edib? Məhz bu baxımdan, vurğulamaq istərdim ki, İqbal Ağazadə İran kəşfiyyatı ilə sıx təmasdadır. Hətta onun adıçəkilən dövlətin gizli kəşfiyyat orqanı olan ETTALAT agentləri ilə birgə şəkilləri var. Nəticədə İqbal Ağazadə ötən prezident seçkilərində də çox iyrənc vasitə ilə təbliğat kampaniyasına qoşuldu. Dövlətçiliyə, ölkəyə qarşı ağlına gələni danışdı. Soruşanda ki, bəs niyə belə edirsən, deyirdi ki, mən özümdə bir müxalifətçi lideri amilini formalaşdırıram. Ancaq göründüyü kimi, o, xaricdən ona verilən təlimatları yerinə yetirirdi. Bu gün onunla birgə Əli Kərimli də, İsa Qəmbər də, Pənah Hüseyn də neçə illərdir ki, müxtəlif xarici ölkələrin kəşfiyyat orqanlarına canla-başla xidmət edirlər. Çünki bunların xəmiri satqınlıqla yoğrulub".

Müasir Müsavat Partiyasının sədri, həmçinin İqbal Ağazadənin bu millətə vəkillik etməyə layiq olmadığını da deyərək bildirib ki, əslində bu adam çox qısa zaman kəsiyində ulduz kimi parladı və söndü: "Təəssüf ki, indi o, "millət vəkili" adı altında parlamentdə oturub. Şəxsən mən, bu titulu ona yaraşdırmıram. Yəni İqbala himayədarlıq edən hansısa dayısı indi də onu deputat edib. Bundan sonra ona şanslar yaradıldı və ulduz kimi parlamağa başladı. Ancaq o, uzun müddət ulduz kimi parlaya bilməyərək söndü. İndi də onun ifşası yavaş-yavaş gündəmə çıxmağa başlayıb. Düşünürəm ki, bu gün Azərbaycanın hüquq-mühafizə orqanlarında, milli təhlükəsizlik orqanlarında İqbal Ağazadə haqqında çox ciddi kompromatlar var və yaxın zamanlarda xalq onun hansı məzhəbə xidmət etdiyini açıq şəkildə görəcək".

**Z.SƏMƏDOVA**

# Müsavatı dəyişdirmək istəyən iddialılar

*Başqan partiyasında baş verən çaxnaşma hara qədər davam edəcək*

***Partiyanın dalana dirənən qurultayı yaxınlaşdıqca başqanlıq məsələsi ilə bağlı Müsavat rəhbərliyi arasında qarşıdurmanın qızışması da kəskinləşir. O cümlədən, başqanlıq barədə iddiasını ortaya qoyanlardan divan üzvü Tural Abbaslı ilə partiya başqanının müşaviri Səxavət Əlisoy arasında ciddi narazılıq yaranıb.***




## Tural Abbaslı: "Səxavət Əlisoy qurultay məsələsini ortaya atmaqla özünü reklam edir"

"Səxavət Əlisoyun fikirləri ilə bağlı deyə bilərəm ki, o da namizədlərdən biridir. Bu, onun fikirləridir, onun strateji yanaşma tərzidir, özünü təqdimat formasıdır, bəlkə o formada özünə səs yığmaq istəyir. S.Soltanlı narahat olmasın, Müsavatın 600-ə yaxın qurultay nümayəndəsi var. Qurultay nümayəndələri kimə səs versələr, kimi dəstəkləsələr, o da başqan olacaq". Bu ifadələr T.Abbaslıya məxsusdur.

T.Abbaslı, həmçinin partiyadaxili çəkişmələrdən danışarkən bildirib ki, çəkişmələr var: "Qarşıdırma dedikdə, deyərdim ki, rəqabət, siyasi çəkişmə var və bu, olacaq da". T.Abbaslı Müsavat başqanlığında özünü ən güclü rəqib olduğunu da bildirib: "Mən özümü başqan görürəm. Əgər özümdən daha artıq, daha lazımlı, faydalı kimisə görsəydim, namizədliyimi verməzdim. Təbii ki, eyni düşüncədə digər namizədlər də ola bilər. Hərənin özünə görə arqumenti var. Mən də bugünkü siyasi reallığa əsasən bu addımı atmışam. Müsavat partiyasının başqanı olmaq hansısa imtiyazlara sahib olmaq demək deyil. Qurultay nümayəndələrinin iradəsi kimdən asılı olacaqsa, biz müsavatçıyıq, şəxslərə görə yox, ideyaya görə birləşmişik, fəaliyyətimizi davam etdirəcəyik".

## Səxavət Əlisoy: "Müsavatın gələcək taleyini elə gələcək göstərəcək"

Müsavat partiyasının üzvü Səxavət Əlisoy bildirib ki, başqanlıq məsələsi partiyada xüsusi maraq doğuran məsələdir: "Müsavt daxilində özünü artıq başqan hesab edənlər də var, hətta vəzifə bölgüsü aparanlar da. Bu "çayı hoppanmamış, bərəkallaha" döndü. Hətta bəziləri dostlarını başqan görür, eləleri də var ki, 5-6 min km-dən ismarıc-ultimatum yollayır ki, filankəsdən savayı kimsə başqan postunda otura bilməz. Siyasi səriştəni və təcrübəni kriteriya kimi vurğulayanlar, "filankəs"in bu posta daha çox yaraşdığını iddia edənlər, "behmənkəs"in başqan olduğu təqdirdə partiyanın ağ günə çıxacağını deyənlər var, siyasi "koridorlarda" çox şeylər danışanlar var".

S.Əlisoy başqanlığa iddialı olduğunu bildirərkən deyib ki, siyasətdə bu, bir etik gedişdir: "Yəni başqanlığa namizədliyini irəli sürənlər tutduğu vəzifədən imtina etməlidir. Müsavat partiyasında ilk dəfə olaraq, mən bu addımı atdım. Təklif edirəm ki, digər siyasi partiyalarda, o cümlədən bizim partiyada da qurultayöncəsi başqanlığa namizədlər vəzifənin verdiyi üstünlüklərdən imtina etsinlər. Mübarizəyə sıravi müsavatçı kimi qatılsınlar. Bu, daha ədalətli və obyektiv olar".

Müsavat başqanlığına digər namizədlərin də partiyadakı vəzifələrindən istefa verib-verməyəcəklərinə gəlincə isə Səxavət Əlisoy vurğulayıb ki, bunu onların özündən soruşmaq lazımdır: "Qaldı ki, konkret kimlərin namizəd olacağı məsələsinə, Müsavatın gələcək taleyini elə gələcək göstərəcək".

Yaranmış vəziyyət onu göstərir ki, Müsavat partiyasının qurultayının keçiriləcəyi günə kimi hələ çox belə partiyadaxili ittihamların şahidi olacağıq.

**R.HÜSEYNOVA**

# İsa Qəmbər acı taleyi ilə barışır

***Bugünkü siyasi vəziyyəti təhlil edərkən, demək olar ki, Müsavat başqanı İsa Qəmbərin bütün vücudu və forması "İslanmışın yağışdan nə qorxusu" atalar məsələnə tam uyğundur. Çünki bu vaxta qədər ətrafında olanlar, eləcə də siyasi düşərgədə eyni maraqları bölüşdüyü "dostları" onun şəxsiyyətini belə alçaldıb təhqir ediblər. "Ümid" partiyasının sədri İqbal Ağazadə onu "müxalifətin üz qarası" adlandırırsa, AXCP sədrinin müavini Nurəddin Məmmədli Əli Kərimlinin sifarişi əsasında "İsa Qəmbər pula aldanan ac hərflərdəndir" deyə bildirir.***



ADP sədri Sərdar Cəlaloğlu, bu yaxınlarda Müsavatdan istefa vermiş Niyazi Mehdi, KXCP sədr müavini Xəzər Teyyublu və digərləri də İ.Qəmbər haqqında heç də xoş olmayan sözlər səsləndiriblər. Demək olar ki, ilk vaxtlar İ.Qəmbər bu cür ittihamlara, haqqında söylənilən təhqirlərə münasibət bildirib, hətta məhkəmələrə də müraciət edib. Ancaq rəqiblərinin sayının kifayət qədər çox olduğunu gördükdən sonra acı taleyi ilə barışmalı olub.

## Qurultay Müsavatın parçalanmasına səbəb olacaq

İsa Qəmbərə qarşı olan aqressiv münasibət müəyyən hallarda partiyadan istefalar baş verməsinə gətirib çıxarıb. Çünki İ.Qəmbərlə eyni yolu bölüşməyin artıq onlar üçün çətin olduğunu dərk edən müsavatçılar çıxış yolunu partiyadan istefa verməkdə görürlər. Araşdırmalara əsasən, demək olar ki, son üç ay ərzində 158 müsavatçı partiyadan istefa verib. Bu prosesin sentyabrın 27-də keçirilməsinin nəzərdə tutulan qurultaydan sonra daha geniş xarakter alacağı proqnozlandırılır. Çünki İ.Qəmbərə qarşı olan nifrət hissi başqanlığa iddialı görünən Arif Hacılıya qarşı da mövcuddur. Başqanlığa iddialı olan Qubad İbadoğlu, Səxavət Əlisoy və Tural Abbaslının hədələyici bəyanatlarla çıxış etmələri proqnozların reallaşacağından xəbər verir. Digər tərəfdən başqanın müşaviri Nüşabə Sadıqlı da son açıqlamaları ilə yanan alova benzin tökmüş olub. N.Sadıqlı bildirib ki, İ.Qəmbərin başqanlıqdan getməsinə imkan verilməməlidir. Yeni vasitələr tapmaqla İ.Qəmbərin başqanlıqda qalması təmin olunmalıdır.

N.Sadıqlının açıqlaması onu deməyə əsas verir ki, İ.Qəmbər başqanlıq kreslosunu saxlamaq üçün ətrafında olanları hərəkətə gətirib. Bunun fonunda Q.İbadoğlu, T.Abbaslı və S.Əlisoyun da sərt mövqe ortaya qoymaları vəziyyətin həqiqətən də kritik olduğunu göstərir. Çünki İ.Qəmbər və onun ətrafında olanlar iddialarını reallaşdırmağa çalışırlarsa, ikincilər A.Hacılının başqan seçilməsini əngəlləməyə cəhd edirlər. Məhz bu iki səbəb Müsavatın qurultayın səhəri günü ciddi parçalanmalarla üzləşəcəyindən xəbər verir. Yəni "ya zəlzələdən, ya da vəlvələdən" Müsavat siyasi yaşam səhifəsini bağlamalı olacaq.

**İ.ƏLİYEV**



# Leyla Yunusdan ermənisayaq addım

**SAMİR**

***Azərbaycanın imicinə zərbə vurmağa səy göstərmək üçün erməni olmaq lazım deyil. Elə Leyla Yunus olmaq bəs edər. İndiyə kimi özlərinə siyasi məhbus adı qoyan müxalifətçilərin heç birinin atmadığı addımı Leyla atdı, heç birinin eləmədiyi işi bu "qadın" gördü. Bu "qadın" beynəlxalq təşkilatlara müraciət edir ki, Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinin rəhbərliyindən uzaqlaşdırılsın. And olsun Allaha ki, heç bir ölkədə bu tip xəyanətkarları bir saat belə yaşatmazdılar. Həbsxanada ola-ola da öz erməniliyini, düşmənliyini etiraf edir və sübut edir ki, indiyə qədərki bütün fəaliyyəti də Azərbaycan dövlətinə zərbə vurmaqdan ibarət olub. Onun həbsi də, istintaqı da, məhkəməsi də cəmi bircə saata yekunlaşmalı idi. Elə bir kolona salınmalı idi ki, nəfəsi belə divarlardan çıxmasın. Xəyanət bu qadının vərəm xəstəliyi kimi bütün vücuduna yayılıb, onunla bir yerdə nəfəs almaqmı olar!?***

Sən demə, müxalifət düşərgəsində çox az qurum var imiş, birini də həbsxanadan Leyla yaradır. Adını da Vicdan Məhbuslarının Müqavimət Hərəkatı. Vicdanı olmayandan vicdan məhbusumu olar? Bunlar vicdanı Əcəmi bazarına çeviriblər, mal alqı-satqısına döndəriblər. Özlərində olmayan şeylərdən o qədər danışırlar ki, az qalırsan ki, olan-qalan vicdanını da çıxarıb onlara verəsən. İndi bunların vicdanı yoxdur, belə eləyirlər. Gör hələ vicdanları olsa, hansı oyunlardan çıxarlar?!

Leylanın araşdırılmasından sonra Qubad İbadoğlu da əl-ayağa düşüb. Çünki QHT sektorunda olan üç yırtıcıdan biri də məhz Q.İbadoğludur. Onun da aldığı qrantlar milyonlarla ölçülür. Bəlkə elə Q.İbadoğlu özünü sığortalamaq üçün başqan olmaq istəyir!? Deyir ki, məni də həbs edə bilərlər. Adama sual verərlər ki, hardan bilirsən bunu? Hüquq-mühafizə orqanlarının içindən məlumat ala bilməzsən, bu sənin başın üçün deyil. İkinci variant isə, öz əməllərinin səni həbs etdirmək gücündə olduğunu bilirsən. Deməli, aldığın qrantların şəffaflığına əmin deyilsən və ona görə də "həbs olunacam" anonsunu verirsən. Bir-iki günə özünə Müdafiə Komitəsi də yaradarsan, beş-altı xəstə müsavatçını da ətrafına yığıb hayşüvən salarsan. Arxayın ol, bu sənə dividend qazandıracaq. O mənada ki, maliyyəni bir az da artıracaqlar.

Amma çox az qalıb, əgər İsa Qəmbər vicdana qalsa qurultay keçirsə, sənin bütün şansların da itir. Zaqatala canavarlarına oxşayan Arif Hacılı imkan verərmi ki, sən başqanlıq kreslosunda əyləşəsən!? Yəni başqan olacağına və bu başqanlığın səni qoruyacağına inanma. Onsuz da həmişə su axır, çuxurun tapır, necə ki Leyla tapdı.

# Elmi mədəniyyətin hüquqi dövlətdə inkişaf xüsusiyyətləri

***Elmi mədəniyyətin mədəniyyət sistemində xüsusi yeri vardır. S.Xəlilov çox düzgün olaraq göstərir ki, mədəniyyət özü də elmin predmetinə daxil olur və mədəniyyətşünaslıq bir elm hadisəsi kimi ortaya çıxır. Klassik mənada elm (science) təbiətin öyrənilməsini ehtiva edir, mədəniyyətin elmi səviyyədə öyrənilməsi isə elmlərin təsnifatında xüsusi bir bölmədə əhatə olunur. O, H.Rikkertin ''Təbiət haqqında elmlər və mədəniyyət haqqında elmlər'' əsərinə istinad edərək bildirir ki, elmin, əsasən, təbiətşünaslıq kimi başa düşülməsini qəbul etməklə yanaşı, ona sanki əks qütb olan və insanın öz yaratdıqlarının tədqiqat predmetinə çevrilməsindən doğan mədəniyyət elmlərini də təsnifata daxil edir.***

Elmin ictimai rolunun artması və ona getdikcə daha böyük diqqət göstərilməsi onun dəyərlər sistemində yerinin müəyyənləşdirilməsinə də ehtiyac yaradır. Digər tərəfdən, elmin insan həyatına daha aktiv müdaxiləsi, bu müdaxilənin hüdudları barədə düşünməyə, elmin etik aspektlərini müəyyən etməyə sövq edir.

Müəllif elmin ictimai sistem kimi sosiologiyanın predmetinə daxil olduğunu da qeyd edir. S.Xəlilovun düzgün olaraq qeyd etdiyi kimi, bəzi filosoflar səhv olaraq elmi mədəniyyətin bir komponenti kimi öyrənirlər. O, bunu səhv hesab edir. S.Xəlilov göstərir ki, kulturologiya üzrə Rusiyada buraxılan ensiklopedik lüğətdə elmin tərifi belə verilir: **"Elm - təbiət, cəmiyyət və insan haqqında biliklər sisteminin yaradılması üzrə ixtisaslaşmış fəaliyyətlə bağlı olan mədəniyyət sahəsidir". Sonra müəllif yazır: "Bu tərifdən belə çıxır ki, elm və biliklər sistemi, nə də onları əldə etmək üçün fəaliyyət sahəsi olmayıb, sadəcə, bu fəaliyyətlə bağlı olan mədəniyyət sahəsidir. Yəni elmi onun elmşünaslıqda qəbul olunmuş anlayışından fərqli olaraq, elmin mahiyyəti ilə bağlı bütün əsas amillər xaricində "izah etmək" təşəbbüsü göstərilir. Halbuki Rusiyanın filosof alimləri bir qədər başqa fikirdədirlər. Yeni fəlsəfə ensiklopediyasında akademik V.S.Styopinin elmə verdiyi tərifdə onun mahiyyəti kimi məhz yeni elmi biliklərin əldə edilməsinə yönəldilmiş idraki fəaliyyətin özü götürülür".**

Hüquqi dövlətin inkişafında mühüm rol oynayan amillərdən biri də elmi mədəniyyətdir. Elmi mədəniyyət - insanlar tərəfindən toplanmış bilik sistemi və fəaliyyət sahəsidir. Elm istehsal və praktik fəaliyyəti də əhatə edir. AMEA-nın müxbir üzvü S.Xəlilov özünün fundamental "Elmşünaslığa giriş" əsərində elmi mədəniyyətin və elmin diferensiallaşması və dörd nisbi müstəqil tədqiqat istiqamətinə ayrılmasını göstərmişdir:

Birinci istiqamətə elm tarixi, elmi biliklərin toplanaraq yeni fənlər əmələ gələnə qədər strukturlaşması və əvvəlcə fəlsəfədən, daha sonra isə ana elmdən ayrılaraq müstəqillik əldə etməsi, yəni elmin genezisi və inkişafı məsələləri aiddir. Elmi nəzəriyyələrin yaranması, fundamental elmi təlimlərdən çıxan nəticələrin təcrübi yoxlanması, nəzəri və empirik biliklər arasında davamlı rabitənin qurulması və s. bu kimi məsələlər də birinci istiqamətə aiddir.

İkinci istiqamətə elmi biliklərin spesifikasının, yəni onun digər biliklərdən fərqinin və onlarla qarşılıqlı nisbətinin öyrənilməsi, biliklərin təsnifatı (müasir dövrdə elmlərin təsnifatı da bura daxil edilir), müxtəlif elmi bilik sahələri arasında qarşılıqlı əlaqə, fənlərarası münasibət məsələləri, elmlərin inteqrasiyası və diferensiallaşması və s. bu kimi məsələlər aiddir.

Üçüncü istiqamətə elmi biliklə gerçəklik arasındakı münasibət, bilik və həqiqət problemi, həqiqi biliyin meyarları, elmilik şərtləri - demarkasiya məsələləri, elmi bilikdə obyektiv və subyektiv amillər və s. bu kimi fəlsəfi-epistemoloji və fəlsəfi-ontoloji məsələlər daxildir. Bunlar, adətən, elmin fəlsəfəsi adı altında öyrənilir.

Dördüncü istiqamətə isə elm probleminin, ümumelmi və spesifik elmi-tədqiqat metodlarının, habelə, bütövlükdə elm metodologiyasının öyrənilməsi aiddir.

Elmi mədəniyyətin aşağıdakı inkişaf mərhələləri göstərilir:

1. Romantik dövr (XV əsrdən XVIII əsrə qədər). Elm xüsusi həvəskarlıq məşğuliyyəti olmaqdan çıxıb sənətə çevrilir. Elmi nəticələr tədris edilir.

2. Klassik dövr (XVIII əsrdən XX əsrin əvvəllərinə qədər). Bu dövr fundamental nəzəriyyələrin yaranması ilə əlaqədardır. Bu vaxt elm xüsusi nəzəriyyələrin cəmi kimi çıxış edir, alimlərin nüfuzu artır.

3. Postklassik dövr (təxminən XX əsrin birinci yarısı). Bu dövrdə dünyanın müasir izahının əsas nəzəriyyələri yaradılır (nisbiyyət nəzəriyyəsi, yeni kosmologiya, nüvə fizikası, kvant mexanikası, genetika). Elmi ideyaların texniki kəşflərə, istehsala və məişətə geniş tətbiqi prosesi başlayır.

4. Postqeyri-klassik dövr indiyə qədər davam edir. Bu vaxt elm, bir qayda olaraq, dövlətin hərtərəfli qayğısına daxil olur, genişmiqyaslı layihələr, məsələn, atom və ya kosmik proqramların, beynəlxalq tədqiqatların təşkili və s. proqramlar həyata keçirilir.

Azərbaycan tədqiqatçısı, professor Y.Rüstəmovun fikrincə, XX əsrdə qeyri-klassik təbiətşünaslığın meydana gəlməsi ilə əlaqədar elm fəlsəfəsi məntiqin, tarix fəlsəfəsinin, psixologiyanın, sosiologiyanın nəticələrindən istifadə edərək və mahiyyətcə dünyanın ümumi elmi mənzərəsinə yönələn fənlərarası tədqiqat xarakteri daşıyaraq peşəkar fəlsəfənin texniki cəhətdən ən mürəkkəb bölmələrindən biri kimi çıxış edir. Belə keyfiyyətdə elm fəlsəfəsi XX əsrin ikinci yarısında artıq formalaşmışdı, lakin xüsusi fəlsəfi istiqamət kimi hələ yüz il əvvəl yaranmış və hər şeydən əvvəl klassik elmin koqnitiv və yaxud epistemoloji ölçülərinin təhlilinə yönəlmişdi. Burada elm fəlsəfəsi - mərhələli inkişaf zamanı formalaşan və daxili müxtəlifliyi (pozitivizm, neo və postpozitivizm, neokantçılığın bəzi cərəyanları, neorasionalizm, tənqidi rasionalizm) ilə fərqlənən, xüsusi fəlsəfi istiqamət yaradan fəlsəfi cərəyan və məktəblərin məcmuu kimi çıxış edir. Bununla birlikdə elm fəlsəfəsi bir sıra fəlsəfi təlimlər (marksizm, fenomenologiya, ekzistensializm, neotomizm) çərçivəsində öz mövcudluğunu davam etdirir. Birinci halda elm fəlsəfəsinin problematikası praktiki olaraq fəlsəfi konsepsiyaların məzmununu tamamilə əhatə edir; ikinci halda isə, elmin analizi daha ümumi fəlsəfi kontekstlərinə daxil edilir və onlara determinasiya edilir.

Müəllif elm fəlsəfi məktəblərin və cərəyanların da adlarını çəkir:

1. Diskursiv postmodernizm (təmsilçisi fransız filosofu Mişel Dukon);

2. Konstruktiv postmodernizm (təmsilçisi J.F.Liotar);

3. Dekonstruktiv postmodernizm (təmsilçisi J.Derrada).

Y.Rüstəmov elmi mədəniyyətin rasionallığı haqqında fikirləri təhlil edərək, onun iki istiqamətini göstərir. Birinci istiqamətə elmi rasionallıq nəzəriyyəsini aid etmək olar. Bu nəzəriyyəyə görə elə bir elm nümunəsi yaradılmalıdır ki, onun özünəməxsus mühakimələri təşkil etmək qaydaları, məntiqi, sübut etmək və həqiqətin meyarları (kriteriyaları və s.) olsun. İkinci istiqamətə də elə elmi rasionallıq nəzəriyyəsini aid etmək olar ki, o, elmitədqiqat işlərinin müəyyən qaydalarına və kriteriyalarına yönəlmiş olsun.

Elmi mədəniyyətin funksiyalarına gəldikdə, onun iki əsas funksiyasını göstərirlər: a) şeylərin mahiyyətinə nüfuz edən idrak funksiyası və b) praktiki fəaliyyət funksiyası, yəni insanın və cəmiyyətin dəyişdirici fəaliyyətində elmin rolunun artması.

Azərbaycan Respublikasında elmin və elmi mədəniyyətin inkişafında Milli Elmlər Akademiyası mühüm rol oynayır. Elmi mədəniyyətin inkişafını daha da təkmilləşdirmək üçün, elm və təhsilin birgə inkişaf konsepsiyasının hazırlanması, "Elm haqqında" Qanunun qəbul edilməsi artıq gündəlikdədir. Elm sahəsində bürokratik mexanizmləri sadələşdirmək elmi mədəniyyətin hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun inkişafında başlıca amilə çevrilməsi zərurəti ortaya çıxmışdır. Bu baxımdan S.Xəlilovun fikirləri çox dəyərlidir: "Xatırlatmaq istərdim ki, Milli Elmlər Akademiyası, heç şübhəsiz, Azərbaycanda elmin inkişafı sahəsində misilsiz xidmətləri olan, böyük kadr potensialına malik nəhəng bir qurumdur. Ona görə də yarım əsr ərzində toplanılmış təcrübəni nəzərə almadan yeni bir qurum yaratmaq sadəlövhlük olardı. Bu səbəbdən də, Azərbaycanda elmin inkişafı ilə bağlı islahatlar aparılarkən, ilk növbədə, Elmlər Akademiyasının təcrübəsinə istinad edilməlidir. Elmin optimal fəaliyyəti onun daxil olduğu daha böyük ictimai sistemlərin təşkilati mexanizmləri ilə sıx surətdə bağlıdır. Elmi-texniki tərəqqini, bir tərəfdən, öz müstəqil strukturuna malik olan bütöv bir hadisə kimi, digər tərəfdən isə, daha böyük miqyaslı hadisənin hissəsi kimi nəzərdən keçirmək olar. O, ictimai tərəqqinin, xüsusən də, hər bir ölkənin sosial-iqtisadi inkişafının tərkib hissəsini təşkil edir".

XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-də elmi mədəniyyətə siyasi müdaxilə olmadığından, elmi plüralizmə şərait yaranmışdı. Azərbaycan Elmlər Akademiyasını "müqəddəs elm ocağı" adlandıran Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadi, ictimai-siyasi və milli-mənəvi tərəqqisi kontekstində Azərbaycan elmi inkişaf etdi. Azərbaycan MEA-nın prezidenti, akademik M.Kərimovun dediyi kimi: **"Azərbaycan elmi bu müdrik və uzaqgörən rəhbərin simasında özünün ən böyük hamisini və qayğıkeşini tapdı. Bu sahəni hər zaman şəxsi diqqət və nəzarətində saxlayan ölkə başçısının həyata keçirdiyi məqsədyönlü tədbirlər sayəsində elm adamlarının maddi və mənəvi problemləri ardıcıl şəkildə öz həllini tapmağa başladı, onların sosial vəziyyəti xeyli dərəcədə yaxşılaşdı. 1970-80-ci illər xalqımızın milli-mənəvi həyatında intibah dövrünə çevrildi, azərbaycançılıq, dövlətçilik dəyərləri ictimai şüurda dərin kök saldı. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, Ümummilli Liderimizin böyük uzaqgörənliklə həyata keçirdiyi humanitar siyasət milli tarixi yaddaşa, mənəvi dəyərlərə qayıdışı təmin etdi, müstəqilliyin ideoloji əsasları, məhz bu illərdə formalaşmağa başladı. Elmlər Akademiyası bu ictimai-mədəni prosesin mərkəzində dayanaraq onun aparıcı bir qüvvəsinə çevrildi".**

Heydər Əliyev Azərbaycanın ali rəhbərliyinə ikinci dəfə qayıtdıqdan sonra da ölkəmizdə elmin inkişafı naminə ardıcıl olaraq mühüm tədbirlər keçirirdi. Ulu Öndərin Azərbaycan Milli Elmlər Akademiyasına müstəqil dövlətimizin elmi-texniki siyasətini həyata keçirməsi akademiyanın yeni məzmunda işləməsinə hüquqi, maddi-mənəvi özül oldu, onun qarşısına məsul dövlət vəzifələri qoydu, xalqımızın intellektual potensialını inkişaf etdirmək, onun dünya elmi ilə inteqrasiyasına nail olmaq baxımından mühüm tarixi sənəd rolunu oynadı. Akademiyanın Naxçıvan bölməsinin yaradılması da Ümummilli Liderimizin müstəsna xidmətidir. Hazırda bu qədim diyarın tarixi, etnoqrafiyası, ekologiyası, folkloru, incəsənəti, təbii ehtiyatları daha dolğun və əhatəli şəkildə öyrənilir.

Son illər ölkəmizin iqtisadi və siyasi həyatında böyük irəliləyiş baş vermişdir. Ölkəmizin beynəlxalq aləmdə nüfuzu artmış, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüşdür. Bədnam qonşularımızın təcavüzünə, müstəqilliyimizə zərbə vurmaq istəyən qüvvələrin cəhdlərinə baxmayaraq, Azərbaycan bütün dünya ictimaiyyətinin gözü qarşısında sürətlə inkişaf etməkdə davam edir. Bu inkişafın təməli Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur və bu gün Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb*

## Gələcəyin telefonları spirtlə işləyəcək

Finlandiyanın Aalto Universitetinin mühəndisi Canmarino Skotti elektrik enerjisini müxtəlif yanacaq materiallarından - maye hidrogen, etanol və metanoldan hasil edən kiçik və səmərəli yanacaq dəliyi hazırlamışdır. C.Skotti doktorluq dissertasiyasında yanacaq dəliklərinin sənaye istehsalının çox qənaətcil texnoloji prosesini təsvir edir. Bu onu deməyə əsas verir ki, yanacaq dəliklərinin kütləvi istehsalına ən yaxın vaxtlarda başlanılacaqdır. Dəliklərin hər biri səthi olmaqla qalınlığı təxminən bir millimetr, ölçüsü isə 14x14 millimetr təşkil edir. Lazım olduqda onları bir-birinə calamaq və bir massivdə qruplaşdırmaq mümkündür. Dəliklərdən biri spirtlə doldurulduqda 0,5 vatt, maye hidrogenlə doldurulduqda 1 vatt gərginliyində cərəyan ötürür. Telefon üçün bir neçə yanacaq dəliyi yetərlidir və bu halda onlar müasir akkumulyatorlarla müqayisədə daha az yer tutacaqdır. Ən əsası isə odur ki, istifadəçi telefonu istənilən mağazada bir neçə saniyəyə enerji ilə doldura biləcəkdir. AzərTAc xakep.ru saytına istinadən xəbər verir ki, C.Skotti miniatür ölçülü yanacaq dəliklərinin istehsalının ucuz başa gəlməsi üçün bir neçə üsul təklif edir. Birincisi, silisium korpusu daha ucuz alüminiumla əvəz etməkdir. Bundan başqa, mühəndis dəliklərin istehsalı üçün lazer ablasiyasından - maddənin səthdən lazer impulsu ilə təmizlənməsindən istifadə etməklə daha effektiv üsullar kəşf etmişdir. Alimin proqnozlarına əsasən, spirtlə işləyən ilk mobil telefonlar yaxın onillikdə satışa çıxarıla bilər. Hələ bəzi kiçik problem həll olunmalı, yanacaq dəliklərinin doldurulması üsulları tapılmalı və onlar hava çirkləndirməsindən mühafizə edilməlidir.

## ELAN

Azərbaycan Dövlət Miqrasiya Xidməti tərəfindən 15.06.2014-cü ildə Abdulkadir Özə verilmiş Seriya MYİ 0197822 nömrəli Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Hüquqları Dövlət Qeydiyyatı Haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən Çıxarışlar Seriya MN №0001542, Seriya MN №0004393, Seriya MN №0004392 nömrəli çıxarışlar itdiyi üçün etibarsız sayılır.






## "Bütün dünyaya ən güclü olduğumuzu göstərdik"

"FİLA-nın qaydalarına görə, Yeniyetmələrin Olimpiya Oyunlarına sərbəst və yunan-Roma güləşi üzrə hərəsindən 2, qadın güləşi üzrə 1 lisenziya qazanmaq mümkündür. Avropa çempionatında sərbəst güləş üzrə 4 qızıl medal qazandıq. Bununla da olimpiada üçün maksimum 2 lisenziyanı əldə etdik. Dünya çempionatında isə 4 finalçımızdan 2-si qızıl medal qazandı". Bu fikirləri SİA-ya açıqlamasında sərbəst güləş üzrə yeniyetmələrdən ibarət yığma komandanın böyük məşqçisi Əsgərxan Novruzov deyib. Onun sözlərinə görə, bu ilin ən önəmli yarışı yeniyetmələrin II Olimpiya Oyunları idi: "Biz dünya və Avropa çempionatları ilə yanaşı, idmançılarımızı olimpiadaya da hazırlayırdıq. Hazırlıq prosesi çox yüksək səviyyədə oldu. Çinin Nanjinq şəhərində keçirilən oyunlara tam heyətlə qatıldıq. Orada isə ən yüksək nəticəyə imza atdıq. Sərbəst güləş üzrə 2 çəkidə 2 qızıl, yunan-Roma güləşi üzrə 1 qızıl, 1 gümüş, qadın güləşi üzrə isə 1 gümüş medal qazandıq. Ümumi nəticəyə görə komanda hesabında birinci olduq. Bütün dünyaya ən güclü olduğumuzu göstərdik". Böyük məşqçi Prezident İlham Əliyevin Azərbaycan idmanına göstərdiyi diqqət və qayğıdan danışıb: "Dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev bizi qəbul etdi. Görüş idmançılarımıza daha da stimul verdi. Cənab Prezidentin diqqəti və qayğısı nəticəsində Azərbaycan idmançıları beynəlxalq arenalarda yüksək nəticələr qazanırlar və ölkəmiz dünyanın idman mərkəzlərindən birinə çevrilib. Medal qazanan idmançılarımız və məşqçilərimizə pul mükafatları da ayrıldı. Azərbaycan idmanına göstərdiyi xüsusi diqqətə görə cənab Prezidentə minnətdarlığımızı bildiririk".

## Kriştiano Ronaldo "Real"ı "topa tutdu"



"Real" (Madrid) klubunun hücumçusu Kriştiano Ronaldo maraqlı fikirləri ilə diqqət çəkib. "Reuters" agentliyinin verdiyi məlumata görə, portuqaliyalı futbolçu "Real"ın transfer siyasətini kəskin şəkildə tənqid edib: "Real"ın transfer siyasəti haqda mənim öz düşüncələrim var. Ancaq bu barədə danışmaq istəmirəm. Əks təqdirdə qəzetlərin sabahkı buraxılışlarının baş səhifəsində olardım. Bu isə mənə lazım deyil. Əgər "Real"ın prezidenti düşünür ki, yeni futbolçular alınmalıdır və bəziləri komandadan getməlidir, o zaman bunu müzakirə etmərəm. Artıq "Real"da heyət baxımından yaxşı və pis mənada dəyişiklik ola bilər. Xoşbəxtlikdən biz Toni Kroos və Xames Rodriqes kimi səviyyəli futbolçularla müqavilə imzaladıq. Anxel di Mariya və Xabi Alonso komanda üçün önəmli futbolçular idi, ancaq düşünürəm ki, onlarsız da hər şey yaxşı olacaq".

## Lippert: "Azərbaycan millisindən gedirəm"

21 yaşafək futbolçulardan ibarət milli komandamızın baş məşqçisi Bernhard Lippert istefa verib. Futbolxeber.az saytının yaydığı məlumata görə, bu haqda alman məşqçinin özü bu dəqiqələrdə keçirilən mətbuat konfransında bildirib. "Artıq AFFA rəhbərliyi ilə bu haqda danışmışam. U-21 millisindəki vəzifəmi başa vururam. Ya seçmə mərhələ başa çatdıqdan sonra, ya da ilin sonunda vəzifəmdən ayrılacağam" - deyə B.Lippert istefasını şərh edərkən bildirib. Alman məşqçi istefasının səbəbini belə izah edib: "Bunun iki səbəbi var. Birinci səbəb odur ki, xeyli müddətdir komandaya rəhbərlik edirəm. Elə oyunçular var ki, hələ U-17-də də mənimlə birgə çalışıblar. Bu gün Azərbaycan yaxşı məşqçilər var. Onların da yolunu açmaq lazımdı. İkinci səbəb isə işlərimin çoxluğudur. Bildiyiniz kimi, idman direktoru kimi də çalışıram. İşlərim həddindən artıq çoxdur. Başqa layihələrim var ki, onları reallaşdırmaq üçün vaxt lazımdı. Eləcə də PRO kateqoriyalı məşqçi kurslarına nəzarət edirəm. Həmçinin 2016-cı ildə 17 yaşlılar arasında Avropa çempionatına ev sahibliyi edəcəyik. Bütün bunlar sizə asan görünməsin".

## "Hədəfimiz "Avro-2016"nın finalında oynamaqdır"



Almaniya millisinin baş məşqçisi Yoahim Löv Argentina ilə keçirəcəkləri yoldaşlıq görüşü öncəsi iddialı açıqlamalar səsləndirib. Almaniya mətbuatına danışan Löv komandasının növbəti hədəfinin "Avro-2016"nın finalında oynamaq olduğunu bildirib: "Argentina ilə oyunda komandanın kapitanı Bastian Şvaynştayger olacaq. Bu il biz dünya çempionatının finalında oynadıq və çempion olduq. "Avro-2016"nın finalında da oynaya bilərik. Bu, bizim əsas hədəfimizdir. Mats Hummels Argentinaya qarşı oynaya bilməyəcək. Sami Xediranın da durumu məlum deyil. Ona görə "Hoffenhaym"dan Sebastian Rudini yığmaya dəvət etdim. Qarşıdakı illərdə gənc futbolçulara üstünlük verəcəyik".

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız:Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi,32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500